Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

17 APREL 2019-cu il

№ 68 (3966)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

■ səh. 8 ■

# TÜRKİYƏYƏ SATILAN RUSİYA S-400-ləri əvvəlcə NAXÇIVANDA QURAŞDIRILA BİLƏR - ERMƏNİLƏR TƏLAŞDA...

Prezident dünyada yalnız Azərbaycanın sosial modelinə xas təqaüdlərin sayını növbəti dəfə artırdı...

■ səh. 3 ■

Azərbaycan-Ermənistan XİN başçılarının humanitar razılaşmaları - Mnatsakanyan ən çox gözlənilən humanitar məsələdən qaçdı...

■ səh. 4 ■

"Onda biz tək Qarabağı yox, Ermənistanı da itirməli olacağıq..."

■ səh. 9 ■

Hakimiyyətdən müxalifətə "istənilən dialoqa hazırıq" mesajı...

■ səh. 6 ■

Bakıda 400-ə yaxın bina şəhərsalma qaydalarından kənar tikilib - kim məsuliyyət daşımalıdır...

■ səh. 15 ■

Elmira Axundova bəzi əlaqədar qurumları rəssamlara laqeyd münasibətdə suçladı

■ səh. 15 ■

162 saylı məktəbin direktoru Sevinc Abbasova ev dustağı edildi

■ səh. 2 ■



■ səh. 6-7 ■

## ✔NATO-Rusiya əlaqələri tam kəsildi, Rusiyanın «sərhədlər boyu xoşniyyətli qonşuluq kəməri» ideyası - yeni prosesin Azərbaycana mühüm dəxli var...

*✔NATO və Rusiya «soyuq müharibə» dövrünün ilk aylarındakı vəziyyətə qayıtdı - silahlanma yarışı yenidən qızışır...*



Nazarbayevin Paşinyana yox, həbsdəki Köçəryana məktub yazmasının aşağılayıcı diplomatik mənası...

■ səh. 5 ■

Türkmənistan Transxəzərdən uzaqlaşır, Rusiyaya qaz satışı bərpa olunur, Trampın Novruz məktubundakı eyham yada düşür...

■ səh. 10 ■




Keçmiş «DəmirBank»ın işçilərinin «Atəşgah Sığorta» ilə məhkəmə davası - işçilər Prezidentə müraciət etdilər...

■ səh. 11 ■

■ səh. 4 ■

Bakıda Narkotiklərlə Beynəlxalq Mübarizə Konfransının dünyaya Qarabağ mesajları...



■ səh. 5 ■

Paşinyandan "ya sülh, ya müharibə" seçimini Azərbaycanın üstünə uğursuz atmaq cəhdi...



■ səh. 10 ■

Təzə meri gözləyən istanbulluların gözünün "kökü saraldı" - İmamoğlu qələbəsini tanıda, Yıldırım məğlubiyyətlə barışa bilmir



■ səh. 12 ■

Orta məktəblərin tarix dərslikləri getdikcə "incəlir"...



■ səh. 11 ■

Sosial şəbəkələrdə azərbaycanlıların rus dilində təhsilinə qarşı ictimai rəyi yanlış kökləyənlər...



## Zakir Həsənov ABŞ səfirinə belə dedi...

*"Dağlıq Qarabağ münaqişəsinə yanaşmada ikili standartlara yol verilir..."*

**Müdafiə naziri, general-polkovnik Zakir Həsənov ABŞ-ın ölkəmizdə yeni təyin olunan səfiri Örl Litzenberqerlə görüşüb.**

Müdafiə Nazirliyindən "Trend"ə verilən məlumata görə, Z.Həsənov səfiri yeni təyinatı ilə əlaqədar təbrik edərək onun ölkəmizdə diplomatik fəaliyyəti dövründə Azərbaycan-ABŞ münasibətlərinin daha da genişlənəcəyinə əminliyini bildirib.

Azərbaycanla ABŞ arasında əlaqələrin NATO proqramları çərçivəsində və ikitərəfli əsasda qurulduğunu qeyd edən Müdafiə naziri hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlığın inkişafının vacibliyini diqqətə çatdırıb.

Regiondakı hərbi-siyasi vəziyyətə toxunan general-polkovnik Z.Həsənov Ermənistanın işğalçılıq siyasətinin davam etdiyini, ATƏT-in Minsk qrupunun həmsədrlərinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı səylərinə baxmayaraq sülh danışıqlarının rəsmi Yerevan tərəfindən qəsdən yubadıldığını vurğulayıb. Nazir təəssüf hissi ilə bildirib ki, bir sıra aparıcı dövlətlər və beynəlxalq təşkilatlar bəzi münaqişələrdə iştirak edən tərəflərə təsir göstərdikləri halda, Dağlıq Qarabağ münaqişəsinə yanaşmada ikili standartlara yol verirlər.

Ö.Litzenberqer də öz növbəsində Azərbaycana səfir təyin olunmasından məmnunluğunu ifadə edərək fəaliyyəti müddətində ölkələrimiz arasında əlaqələrin daha da inkişafı naminə səylərini əsirgəməyəcəyini vurğulayıb.

ABŞ-ın Azərbaycanın ərazi bütövlüyünü tanıdığını və ona hörmətlə yanaşdığını qeyd edən amerikalı diplomat ölkəsinin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin tərəfdarı olduğunu, bunun Cənubi Qafqaz regionunun inkişafı və təhlükəsizliyinin təmin edilməsi baxımından vacibliyini bildirib.

ABŞ-Azərbaycan əməkdaşlığının strateji əhəmiyyət kəsb etdiyini qeyd edən səfir Azərbaycan Ordusunda aparılan islahatları izlədiyini və bu sahədə əldə edilən nailiyyətləri yüksək dəyərləndirdiyini diqqətə çatdırıb. İki ölkə arasında hərbi əməkdaşlığa toxunan Ö.Litzenberqer Azərbaycan sülhməramlılarının Əfqanıstanda keçirilən missiyada iştirakından məmnunluq ifadə edib.

Sonra tərəflər regional və ikitərəfli əməkdaşlıq, Xəzər dənizi və mühüm enerji infrastrukturlarının təhlükəsizliyi, kütləvi qırğın silahlarının yayılmasına qarşı mübarizə, hər iki ölkənin hərbi təhsil üzrə mütəxəssislərinin qarşılıqlı səfərləri, həmçinin maraq doğuran bir sıra digər məsələləri müzakirə ediblər.

# Prezident İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibini qəbul edib



**Prezident İlham Əliyev aprelin 16-da Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Bağdad Amreyevi qəbul edib.**

Dövlət başçısı Bağdad Amreyevi Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi vəzifəsinə təsdiq olunması münasibətilə bir daha təbrik edərək, onun təşkilata üzv olan qardaş ölkələr arasında əməkdaşlığın genişləndirilməsinə töhfə verəcəyinə əminliyini bildirib. Prezident İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının təsis olunması ilə əlaqədar 10 il bundan əvvəl Naxçıvanda keçirilmiş əlamətdar Zirvə görüşünü məmnunluqla xatırlayaraq, ötən müddət ərzində bu təşkilatın gücləndiyini və vacib beynəlxalq quruma çevrildiyini vurğulayıb.

Təbrikə görə minnətdarlığını bildirən Bağdad Amreyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 10 il əvvəl məhz türk dünyasının böyük oğlu, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin doğulduğu Naxçıvanda, Azərbaycan torpağında təsis edilməsinin bu təşkilata xüsusi mahiyyət verdiyini diqqətə çatdırıb. Qonaq Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının təsis olunmasının 10 illiyi münasibətilə növbəti Zirvə toplantısına bu ilin payızında Azərbaycanın ev sahibliyi edəcəyini vurğulayaraq, bu Zirvə toplantısının da Azərbaycan tərəfindən yüksək səviyyədə təşkil olunacağına əminliyini ifadə edib. Bağdad Amreyev təşkilat daxilində iqtisadiyyat, ticarət, maliyyə, nəqliyyat və digər istiqamətlərdə əməkdaşlığın inkişaf etdirilməsi, müvafiq beynəlxalq təşkilatlarla əlaqələrin qurulması barədə dövlət başçısına məlumat verib.

Prezident İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Bağdad Amreyevə gələcək fəaliyyətində uğurlar arzulayıb və ölkəmizin bu təşkilatın 10 illiyi münasibətilə Azərbaycanda keçiriləcək Zirvə toplantısına yüksək səviyyədə ev sahibliyi edəcəyini deyib.

# Türkiyəli deputat İrəvanda ermənilərə Azərbaycanla barışığın yolunu göstərdi

**Azərbaycan və Türkiyə bir millət, iki dövlətdir və Ermənistan bunu bilməlidir.**

"Trend"in məlumatına görə, bunu türkiyəli millət vəkili Metin Gündoğdu İrəvanda Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının iclasında deyib.



Onun sözlərinə görə, Türkiyənin Azərbaycanla bağlı mövqeyi və iki ölkə arasında qardaşlıq münasibətləri dəyişməz qalacaq. O vurğulayıb ki, Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərini azad etməli və münaqişənin nizamlanması üçün zəruri şərtləri yerinə yetirməlidir.

**Qeyd edək ki, bu gün Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu bütün dünyanın Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalını tanıdığını bildirib.**

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

«Bakı-Xəbər» qəzetini hər səhər evinizdə və iş yerinizdə əldə etməyin ən asan yolu -

**Abunə!**

Abunə istəyinizdən asılı olaraq 1-12 aylıq müddətə yazılır.

1 aylıq abunə qiyməti - **8 AZN**

3 aylıq abunə qiyməti - **24 AZN**

**Abunə yazılışı aşağıdakı mətbuat yayım şirkətləri vasitəsilə həyata keçirilir:**

**QAYA - telefonlar:** (012) 564-63-45; 564-48-96

**Azərmətbuatyayım:** (012) 441-19-91; 440-27-85; 440-39-83

**Press İnform:** (012) 498-00-80; (055) 315-60-02

# 162 saylı məktəbin direktoru Sevinc Abbasova ev dustağı edildi

**Xəbər verildiyi kimi, Bakı şəhəri, Səbail rayonu 162 nömrəli tam orta məktəbin 8-ci (r) sinif şagirdi, 2004-cü il təvəllüdlü Elina Hacıyevanın təhsil aldığı məktəbin üçüncü mərtəbəsindən özünü ataraq intihar etməsi faktı ilə bağlı Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə başlanmış cinayət işi üzrə istintaq davam etdirilir.**



Aparılmış istintaqla həmin məktəbin direktoru işləmiş Sevinc Abbasovanın xidməti vəzifələrini lazımı qaydada yerinə yetirməyib, vaxtaşırı özünə qapanan Elina Hacıyevanın ruhi-emosional vəziyyətinə xüsusi həssaslıqla yanaşmamaqla ona psixoloji-mənəvi dəstək göstərilməsinə laqeyd münasibətinin ehtiyatsızlıqdan onun ölümünə səbəb olmasına, habelə hadisə baş verdikdən dərhal sonra təcili-tibbi yardım çağırılmasını vaxtında təmin etməyərək E.Hacıyevanı təhlükədə qoymasına dair əsaslı şübhələr müəyyən edilib.

Sevinc Abbasova 15 aprel 2019-cu il tarixdə Cinayət Məcəlləsinin 143-cü (təhlükədə qoyma) və 314.2-ci (səhlənkarlıq, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddələri ilə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb olunub.

Bakı şəhəri Səbail Rayon Məhkəməsinin 16 aprel 2019-cu il tarixli qərarı ilə S.Abbasova barəsində ev dustaqlığı qətimkan tədbiri seçilib.

**Hazırda cinayət işi üzrə intensiv istintaq-əməliyyat tədbirləri davam etdirilir.**

***Baki-xeber.com***

# Prezident dünyada yalnız Azərbaycanın sosial modelinə xas təqaüdlərin sayını növbəti dəfə artırdı...

**Azərbaycan dövlətinin həyata keçirdiyi məqsədyönlü siyasət cəmiyyətin bütün sferalarını əhatə edir. Burada əsas diqqətin əhalinin aztəminatlı təbəqəsinə, eləcə də müharibə veteranlarına, əlilliyi olan insanların sosial rifah halının yüksəldilməsinə yönəldildiyi məlumdur. Son bir neçə ayda Prezident İlham Əliyev bu istiqamətdə bir neçə sərəncam və fərman imzalayıb.**

## *Fazil Talıblı: "...sosial təminat sisteminin əhatə dairəsinin daha da genişlənməsini nəzərdə tutur"*



*"Qeyd olunan məqsədlər üçün əlavə olaraq illik 400 milyon manat ayrılmaqla, sosial müavinət və təqaüdlərin verilməsinə yönələn illik vəsait 2 dəfə artırılacaq"*

Aprelin 15-də Prezident İlham Əliyev tərəfindən ard-arda dörd sənəd imzalanıb ki, bu sənədlər Böyük Vətən Müharibəsi və digər müharibə veteranlarına, eləcə də əlilliyi olan uşaqlara və onlara baxan şəxslərə şamil edilir. Belə ki, müharibə veteranlarına "Azərbaycan Respublikası Prezidentinin təqaüdü" təsis edilib və onun aylıq məbləği 80 manat müəyyən olunub. Böyük Vətən Müharibəsi iştirakçılarına isə Prezident təqaüdünün məbləği artırılıb. Belə ki, bu kateqoriyadan olan insanlar 150 manat məbləğində təqaüd alacaqlar.

"I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü" təsis edilib və onun aylıq məbləği 50 manat müəyyən olunub.

Qeyd edək ki, dövlət başçısı cari ilin fevral ayında bu istiqamətdə bir neçə sərəncam da imzalayıb. Prezidentin 21 fevral 2019-cu il tarixli Sərəncamına əsasən, Əfqanıstanda müharibənin başa çatmasının 30 illiyi ilə əlaqədar Azərbaycan Əfqanıstan veteranlarına dövlət qayğısının artırılması, Azərbaycan Əfqanıstan Veteranları İctimai Birliyinin maddi-texniki bazasının gücləndirilməsi, habelə Birliyin fəaliyyətinin təkmilləşdirilməsi üçün cari məsələlərin həlli və nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinin təmin olunması məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Əfqanıstan Veteranları İctimai Birliyinə 1,0 (bir) milyon manat ayrılıb.

Dövlət başçısının "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" 25 fevral 2019-cu il tarixli Sərəncamı da bu kateqoriyadan olan vətəndaşların rifahının yaxşılaşdırılması istiqamətində əhəmiyyətli irəliləyişə imkan verib. Həmin sənəddə yaşa görə sosial müavinətin məbləğinin 130 manata çatdırılması, sosial müavinətin məbləğinin I qrup əlilliyə görə 150 manata, II qrup əlilliyə görə 130 manata, III qrup əlilliyə görə isə 110 manata çatdırılması, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara sosial müavinətin məbləğinin 150 manata çatdırılması, ailə başçısını itirməyə görə sosial müavinətin məbləğinin 80 manata çatdırılması, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına (himayəçilərinə) sosial müavinətin məbləğinin 100 manata çatdırılması, I qrup əlillərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərə qulluq üçün əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə I qrup əlilliyi olan şəxslərə qulluq edənlərə və sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edənlərə 50 manat məbləğində Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi, müharibə veteranlarına kommunal, nəqliyyat və digər xidmətlərə görə sosial müavinət, habelə döyüşən ordunun tərkibində xidmət etmiş müharibə iştirakçılarının əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə 80 manat məbləğində Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi, müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün məbləğinin I qrup əlilliyə görə 250 manata, II qrup əlilliyə görə 230 manata, III qrup əlilliyə görə 210 manata çatdırılması, əlillik ümumi xəstəlik, hərbi xidmət dövründə xəstələnmə, əmək zədəsi və peşə xəstəliyi, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar səbəblərdən baş verdikdə I qrup əlilliyə görə sosial müavinət alanlara Azərbaycan Respublikası Prezidentinin təqaüdünün əmək pensiyası almaq hüququ olan I qrup əlillərə (gözdən əlillər istisna olmaqla) şamil olunması və məbləğinin 100 manata çatdırılması, 1941-1945-ci illər Böyük Vətən Müharibəsi iştirakçılarına, İkinci Dünya Müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə (müharibə əlilləri istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin təqaüdünün məbləğinin 150 manata çatdırılması və s. məsələlər yer alıb.

Prezident İlham Əliyevin son imzaladığı sərəncam və fərmanlar nə qədər insanı əhatə edəcək?

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdiri Fazil Talıblı "Bakı-Xəbər"ə bildirdi ki, Prezident İlham Əliyevin yeni sərəncam və fərmanlar ilə aprelin 1-dən müavinət və təqaüdlərin ciddi şəkildə artırılması, yeni təqaüd növlərinin təsis edilməsi təmin olunub:** "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 15 aprel 2019-cu il tarixdə imzaladığı sərəncam və fərmanlar bir sıra kateqoriyalardan olan vətəndaşlara sosial müavinətlərin və Prezident təqaüdlərinin aprelin 1-dən orta hesabla 100 faiz artırılmasını, yeni təqaüd növlərinin təsis olunmasını təmin edir.

Bu sənədlər dövlət başçısının uğurlu sosial islahatlar paketinin növbəti nailiyyəti olmaqla, əhalinin, xüsusilə həssas qruplardan olan vətəndaşların rifah halının yaxşılaşdırılmasında əhəmiyyətli addımın atılması deməkdir.

Belə ki, "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" Azərbaycan

Respublikası Prezidentinin 2013-cü il 29 avqust tarixli, 973 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 15 aprel 2019-cu il tarixli Fərmana əsasən, aprelin 1-dən əlillik "ümumi xəstəlik", "hərbi xidmət dövründə xəstələnmə", "əmək zədəsi və peşə xəstəliyi", "hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar", "Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar", "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar" və "1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar", "Çernobıl AES-də hərbi xidmətlə əlaqədar" və ya "hərbi xidmət vəzifələrini yerinə yetirməklə əlaqədar" səbəbindən baş verdikdə aylıq müavinətin məbləği I dərəcə əlilliyi olan şəxslər üçün 150 manata, II dərəcə əlilliyi olan şəxslər üçün 130 manata, III dərəcə əlilliyi olan şəxslər üçün 110 manata, uşağın anadan olmasına görə birdəfəlik müavinət isə 200 manata çatdırılır.

Aylıq müavinətin məbləği yaşa görə müavinət alanlar üçün 130 manat, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar üçün 150 manat, ailə başçısını itirməyə görə 80 manat (hər nəfər üçün), müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının uşaqları üçün 100 manat (hər uşaq üçün), valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumları üçün (himayəçilərinə) müavinət 100 manat, dəfn üçün birdəfəlik müavinət 300 manat müəyyən olunub. Fərmanda 2013-cü il 29 avqust tarixli, 973 nömrəli Fərmanın müvafiq yarımbəndindədki "müharibə əlillərinin, 20 Yanvar hadisələri zamanı əlil olanların, Çernobıl qəzası nəticəsində I və II qrup əlil olmuş" sözlərinin "müharibə ilə və ya 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərin, Çernobıl qəzası nəticəsində I və II dərəcə əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilməsi tapşırılır. İmzalanan digər bir Fərmanla isə beşdən çox uşağı olan qadınlara sosial müavinətin məbləği 55 manata (hər uşaq üçün) çatdırılır. 15 aprel 2019-cu il tarixdə imzalanan daha bir Fərmanla "Müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" 2008-ci il 9 sentyabr tarixli, 823 nömrəli Fərmanda "Müharibə əlillərinə" sözlərinin "Müharibə və ya 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə" sözləri, "əlil olan" sözlərinin "əlilliyi müəyyən olunmuş" sözləri ilə əvəz edilməsi tapşırılır. Həmçinin, qeyd olunan 2008-ci il 9 sentyabr tarixli, 823 nömrəli Fərmanın aid olduğu şəxslərin (Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə, cəbhədə olmaqla və ya döyüş əməliyyatları aparılan ölkələrdə beynəlmiləl borcu yerinə yetirməklə bağlı, həmçinin, hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirərkən sağlamlıqlarını itirərək əlilliyi müəyyən edilmiş şəxslərin) sırasına 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər də daxil edilir. Beləliklə, Prezidentin aylıq təqaüdü Fərmanın əhatə etdiyi kateqoriyalardan olan I dərəcə əlilliyi olan şəxslərə 250 manat, II dərəcə əlilliyi olan şəxslərə 230 manat, III dərəcə əlilliyi olan şəxslərə 210 manat müəyyən olunur. Dövlət başçısının imzaladığı digər bir Fərman isə ümumi xəstəliklə, hərbi xidmət dövründə xəstələnmə ilə, əmək zədəsi və peşə xəstəliyi ilə, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə bağlı səbəblərdən I qrup əlilliyi olan şəxslərə (əlilliyə görə aylıq sosial müavinət və ya əmək pensiyası almasından asılı olmayaraq) Prezidentin aylıq təqaüdü kimi 100 manat təqaüdün verilməsini nəzərdə tutur. Beləliklə, bu Fərman bir tərəfdən həmin kateqoriyalardan olan I qrup əlilliyi olan şəxslərə Prezidentin aylıq təqaüdünün artırılaraq 100 manata çatdırılmasını, digər tərəfdən, həmin təqaüdün əmək pensiyası alan I qrup əlilliyi olan şəxslərə də ödənilməsini (bu vaxta qədər yalnız aylıq sosial müavinət alan I qrup əlilliyi olan şəxslərə ödənilirdi) təmin edir. Prezident cənab İlham Əliyevin 15 aprel 2019-cu il tarixli digər Fərmanında isə I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilməsi və onun aylıq məbləğinin 50 manat müəyyən olunması nəzərdə tutulur. Bu Fərmanda həmin təqaüdün 2019-cu il aprelin 1-dək I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara münasibətdə "Əmək pensiyaları haqqında" Qanunda nəzərdə tutulmuş qulluq üçün əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə və təqaüdü almaq hüququ olan şəxslərdən yalnız birinə ödənildiyi qeyd olunur. "Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" 15 aprel 2019-cu il tarixli Fərmanda isə müharibə veteranlarına Prezidentin aylıq 80 manat məbləğində təqaüdünün təsis olunması tapşırılır. Fərmanda qeyd olunur ki, bu təqaüd 2019-cu il aprelin 1-dək kommunal, nəqliyyat və digər xidmətlərə görə sosial müavinət alan şəxslərə həmin sosial müavinətin əvəzinə, əmək pensiyası alan və döyüşən ordunun tərkibində xidmət etmiş müharibə iştirakçılarına (Böyük Vətən Müharibəsi iştirakçıları istisna olmaqla), habelə döyüş əməliyyatı aparılan ölkədə hərbi xidmət borcunu yerinə yetirmiş hərbi qulluqçulara əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə verilir".

F.Talıblı qeyd etdi ki, Prezident İlham Əliyevin aprelin 15-də imzaladığı daha bir sənədlə "1941-1945-ci illər Böyük Vətən Müharibəsi iştirakçılarına, İkinci Dünya Müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 2 iyul tarixli, 2320 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Sərəncamla isə həmin kateqoriyalardan olan vətəndaşlara Prezidentin aylıq təqaüdünün məbləği 150 manata çatdırılır. "Beləliklə, imzalanan sərəncam və fərmanlar 600 minədək şəxsin (o cümlədən 300 min əlilliyi olan şəxsin) sosial müavinətlərinin, Prezidentin aylıq təqaüdlərinin ciddi şəkildə artırılmasını, əlavə olaraq bir sıra kateqoriyalardan olanlar üçün Prezidentin aylıq təqaüdlərinin təsis olunması ilə sosial təminat sisteminin əhatə dairəsinin daha da genişlənməsini nəzərdə tutur. Qeyd olunan məqsədlər üçün əlavə olaraq illik 400 milyon manat ayrılmaqla, sosial müavinət və təqaüdlərin verilməsinə yönələn illik vəsait 2 dəfə artırılacaq. Bütün bu addımlar Prezident cənab İlham Əliyevin güclü sosial siyasətinin başlıca hədəfinin əhalinin rifahının təminatı olduğunu, bu siyasətin əsasında vətəndaş amili, sosial ədalət və humanizm prinsiplərinin dayandığını bir daha təsdiq edir və ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır" - deyə F.Talıblı qeyd etdi.

***İradə SARIYEVA***

**Azərbaycan narkotiklərlə mübarizə sahəsində olduqca aktivdir və bu istiqamətdə mühüm tədbirlər həyata keçirir. Ölkəmizin evsahibliyi ilə keçirilən Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfrans da göstərir ki, Azərbaycan bu qlobal təhlükənin aradan qaldırılması sahəsində səylərini əsirgəmir və bu yöndə beynəlxalq qurumlarla əməkdaşlıq edir.**

# Bakıda Narkotiklərlə Beynəlxalq Mübarizə Konfransının dünyaya Qarabağ mesajları...

## Şəmsəddin Əliyev: *"Belə bir mühüm tədbirin Bakının evsahibliyi ilə keçirilməsi..."*




*"Ölkəmiz dünyaya bu çağırışı edir ki, Azərbaycan torpaqları işğaldan azad edilməyincə, bəşəriyyət üçün bu sosial bəlanın əhatə dairəsi daha da genişlənəcək"*

Qeyd edək ki, Ermənistan silahlı qüvvələri tərəfindən işğal altında saxlanan Azərbaycan torpaqlarından ermənilər narkoticarət məqsədilə istifadə edirlər. Artıq bütün dünyaya məlumdur ki, Azərbaycan torpaqlarında ermənilər narkotik istehsalı ilə məşğul olur, onun satışını, bütün yer üzünə yayılması prosesini həyata keçirirlər. Ermənilər işğal etdikləri Azərbaycan torpaqlarında narkotik əkir, satır, satışdan əldə etdikləri külli miqdarda maliyyədən isə öz çirkin niyyətlərini həyata keçirmək üçün istifadə edirlər.

Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfransın Bakıda keçirilməsi işğal olunmuş Azərbaycan torpaqları ilə, bütövlükdə, Dağlıq Qarabağla bağlı problemin dünyaya çatdırılması istiqamətində nə kimi mesajlar verdi?

**Tanınmış hüquqşünas Şəmsəddin Əliyev "Bakı-Xəbər"ə bildirdi ki, belə mühüm tədbirin Azərbaycanda keçirilməsinin böyük əhəmiyyəti var və bu tədbirdə səsləndirilən fikirlər ermənilərin çirkin əməllərinin ifşa edilməsində böyük rol oynayır.** Ermənistanın işğal altında saxladığı Azərbaycan torpaqlarında narkotik əkməsinin, həmin zərərli məhsulun dünyaya çıxarmasının bəşəriyyət üçün təhlükəli olduğunu deyən Ş.Əliyev hesab edir ki, dünya dövlətləri bu məsələ ilə bağlı mövqe sərgiləməlidirlər. "Bütün dünyada narkobiznes və narkotik vasitələrin dövriyyəsi ilə bağlı həyəcan təbilinin çalınması zamanıdır. Ümumiyyətlə, bütün dünyada bu sahədə cinayətlərin sayında aybaay artım müşahidə olunur. Təbii ki, bu problem Azərbaycanda da var. Bizim artıq ciddi narahatlığımız Azərbaycanın işğal altında olan ərazilərindən dünyaya ermənilər tərəfindən narkotik vasitələrinin yayılmasıdır. Sirr deyil ki, narkotik vasitələr Ermənistanın işğal altında saxladığı ərazilərdən Avropaya, eləcə də dünyanın digər yerlərinə daşınır. Bu da Azərbaycana ögey münasibət bəsləyən bəzi dövlətlər, cinayətkar qruplar tərəfindən dolayı yollarla Azərbaycana da gətirilir. Hesab edirəm ki, belə bir mühüm tədbirin Bakının evsahibliyi ilə keçirilməsi Ermənistanın Azərbaycanın işğal altında saxladığı torpaqlarda narkotik vasitələr əkməsinin, eləcə də həmin məhsulları dünyaya ixrac etməsinin dünya üçün qlobal təhlükə olmasını ifadə edən bir mesajdır. Azərbaycan bununla bir daha dünyaya mesaj verir ki, Dağlıq Qarabağ problemi beynəlxalq hüquq çərçivəsində həll edilmirsə, Azərbaycanın ərazi bütövlüyü təmin olunmursa, ermənilərin o torpaqlarda həyata keçirdikləri narkotik cinayətləri bütün bəşəriyyət üçün təhlükədir. Ölkəmiz dünyaya bu çağırışı edir ki, Azərbaycan torpaqları işğaldan azad edilməyincə, bəşəriyyət üçün bu sosial bəlanın əhatə dairəsi daha da genişlənəcək. Azərbaycan dünyaya bu mesajı verdi. Düşünürəm ki, Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfransın Bakıda keçirilməsi Azərbaycan dövlətinin, diplomatiyasının sayıqlığı və uzaqgörənliyidir. Hesab edirəm ki, bu tədbirin səmərəsi olacaq" - deyə Ş.Əliyev bildirdi.

***İradə SARIYEVA***

**Aprelin 15-də Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin Moskva görüşündə əldə edilən razılaşmalarla bağlı məlumat yayılıb. Xarici işlər naziri Elmar Məmmədyarov qeyd edib ki, əvvəlcə Azərbaycan, Rusiya və Ermənistan xarici işlər nazirləri üçtərəfli görüş keçiriblər: "Çox faydalı görüş oldu.**

# Azərbaycan-Ermənistan XİN başçılarının humanitar razılaşmaları - Mnatsakanyan ən çox gözlənilən humanitar məsələdən qaçdı...

## Əhməd Şahidov: *"Həmin ailələrin əsir və girovlarla görüşməsi prosesin məntiqi sonluqla nəticələnməsinə yol açacaq"*



*"Ermənistan rəhbərliyi bu cür tənələrdən yaxa qurtarmaq üçün razılaşmağa məhkumdur"*

İndiyə qədər danışıqlarda irəliləyişə imkan verməyən məsələləri konkret şəkildə müzakirə etdik. Tam şəkildə irəliləyişin olmasını deyə bilmərəm. Ancaq Ermənistan tərəfi ilə bəzi problem yaradan məqamları ətraflı və daha dərindən başa düşə bildik. Məsələn, Ermənistan tərəfi statusla və təhlükəsizliklə bağlı məsələ qaldırdı. Biz isə qoşunların işğal altında olan torpaqlardan çıxarılması və məcburi köçkünlərin geri qaytarılması məsələsini qaldırdıq. Bu dörd fikir əsasında çox dərin müzakirələr apardıq".

Elmar Məmmədyarov vurğulayıb ki, görüşdə bəzi təkliflər səsləndirilib: "İndidən bu təklifləri açıqlamaq istəmirəm. Bu həm Rusiya, həm digər həmsədrlər, həm də Azərbaycan və Ermənistan tərəfinin təklifləridir. Biz bu istiqamətdə işimizi davam etdirəcəyik".

Nazir görüşün yekun bəyanatında qeyd olunduğu kimi, Azərbaycan və Ermənistan jurnalistlərinin Bakıya, Yerevana və Dağlıq Qarabağa səfərlərinin təşkili məsələsinə toxunub: "Bu çox maraqlı fikirdir ki, erməni və azərbaycanlı jurnalistlər Yerevana, Bakıya, Dağlıq Qarabağa səfərlər etsinlər. Bundan əlavə, cəbhə bölgəsində kənd təsərrüfatı ilə məşğul olan əhalinin təhlükəsizliyinin təmin olunması barədə razılığa gəldik. Ümid edirəm ki, Ermənistan tərəfi buna hörmətlə yanaşacaq. Sakinlərə öz torpaqlarında işləməyə imkan yaradacaqlar".

Həmçinin, qeyd edilir ki, Rusiya, Azərbaycan və Ermənistan xarici işlər nazirləri, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə ATƏT-in Minsk Qrupunun həmsədrləri yaxınlarının məhbusları ziyarət etməsinə dair tədbir görməklə bağlı razılığa gəliblər. Bu, ölkələrin xarici işlər nazirlərinin və ATƏT-in Minsk Qrupu həmsədrlərinin Moskvada danışıqlarının yekunlarına dair birgə bəyanatında bildirilir.

Göründüyü kimi, mühüm siyasi məsələlərlə bağlı razılıq əldə olunmasa da, humanitar sahədə müəyyən razılaşmalar var. Ən maraqlısı budur ki, məhz həmin humanitar sahəni əhatə edən vacib məsələ ilə bağlı Ermənistan yenidən qeyri-konstruktivlik nümayiş etdirib. Söhbət Azərbaycan tərəfinin təklif etdiyi girovların hamının-hamıya prinsipi ilə dəyişdirilməsindən gedir. Ermənistan tərəfinin bu məsələdə yenidən yaxasını kənara çəkməsi nə ilə izah oluna bilər?

**Azərbaycanlı Əsir və Girovlarla Bağlı Məlumat Mərkəzinin koordinatoru, hüquq müdafiəçisi Əhməd Şahidov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, əslində, ermənilərdən bu mövqe gözlənilən idi:** "Moskva görüşündə tərəflər arasında humanitar problemlərin həlli ilə bağlı bir sıra müzakirələrin, hətta razılaşmaların olması ilə bağlı eyhamlar var. Ermənistan tərəfi hələ ötən ildən Azərbaycanın təklif etdiyi hamının-hamıya prinsipi ilə əsirlər və girovların dəyişdirilməsi təklifinə razılıq vermək istəmir. Son hadisələr, xüsusilə də Vyana və Moskva görüşlərində aparılan müzakirələr onu deməyə əsas verir ki, humanitar məsələlərin həlli istiqamətində proses davamlı olacaq. Bunu hətta əsir və girovların bizim dediyimiz prinsiplə dəyişəcəyinə hazırlıq mərhələsi kimi də qeyd edə bilərik. Son illərə qədər Ermənistan buna razı olmasa da, artıq mövqeyində bir qədər müsbətə doğru irəliləyişlər hiss edilir. Əgər əvvəl Ermənistan bu mövzudan ümumiyyətlə qaçırdısa, hazırda əsir və girovların öz ailə üzvləri ilə görüşməsinə izn verilməsi ilə razılaşır. Hesab edirəm ki, Ermənistan rəhbərliyi daxili ictimai rəyi də hesablayır və ona görə birdən-birə addım atmaq istəmir. Həmin ailələrin əsir və girovlarla görüşməsi prosesin məntiqi sonluqla nəticələnməsinə yol açacaq. Bununla etimad mühiti bir az da sağlamlaşacaq. Növbəti mərhələdə Ermənistan əsir və girovların hamının-hamıya prinsipi ilə dəyişdirilməsinə razı olacaq. Ötən il onlar bu mövzuda danışmağa belə həvəsli deyildilər. Düşünürəm ki, yay aylarında Azərbaycanın təklifi üzrə əsir və girovların dəyişdirilməsi baş tutacaq. Çünki həmin əsir və girovların doğmaları Ermənistan rəhbərliyi qarşısında ciddi tələb qoyurlar. Onlar Azərbaycanı misal gətirib deyirlər ki, rəsmi Bakı öz vətəndaşlarının taleyi ilə maraqlandığı üçün hamının-hamıya prinsipini təklif edir, bəs Ermənistan niyə bundan yayınır? Doğrudan da valideynlərin tələbləri qarşısında Paşinyan hökuməti söz tapıb danışa bilmir. Hətta əsirlərin doğmaları bir neçə dəfə aksiya keçirib yolları da bağlayıblar. Ermənistan rəhbərliyi bu cür tənələrdən yaxa qurtarmaq üçün razılaşmağa məhkumdur".

***Məhəmmədəli QƏRİBLİ***

# Nazarbayevin Paşinyana yox, həbsdəki Köçəryana məktub yazmasının aşağılayıcı diplomatik mənası...

**Qazaxıstan Respublikasının ilk prezidenti, qazax xalqının lideri Nursultan Nazarbayev Ermənistanın baş naziri Nikol Paşinyana qarşı saymazlıq edərək, bu ölkənin həbsdə olan ikinci prezidenti Robert Köçəryana məktub göndərib.**



*"Bunu Köçəryana münasibətdə bir siyasi jest kimi də qəbul etmək olar"*

## *Fikrət Sadıqov: "Nazarbayevin məktubu, dolayısı da olsa, Paşinyana və onun hakimiyyətinə bir zərbədir"*

Məktubda Nazarbayev onu Qazaxıstanda gedən daxili-siyasi proseslər və dəyişikliklər barədə məlumatlandırıb.

Köçəryanın ofisinin mətbuat xidmətinin yaydığı məlumata görə, məktubda Nazarbayev Köçəryanın prezidentliyi dövründə onunla birgə işlədikləri illəri sevgi və səmimiyyətlə xatırladığını vurğulayıb. Həmçinin, ümid edib ki, Köçəryanla bundan sonrakı şəxsi əlaqələri davam edəcək.

Məlumat üçün qeyd edək ki, 2008-ci il martın 1-də ölkədə keçirilən etiraz aksiyalarının dağıdılması zamanı 10 nəfərin ölümü və ölkənin konstitusiya quruluşunu devirmək cəhdi ilə əlaqədar açılan cinayət işi çərçivəsində ittiham olunan Köçəryan ötən il dekabrın 7-də yenidən həbs olunub. Qazaxıstanın keçmiş prezidenti N.Nazarbayev martın 20-də istefa verib.

Nazarbayevin Köçəryana məktub yazması Ermənistan ictimaiyyətində, xüsusən də siyasi dairələrində xoş qarşılanmayıb. Erməni ekspertlərə görə, Qazaxıstan liderinin hazırda ölkəsində baş verənlərlə bağlı Ermənistanda real hakimiyyət sahibini deyil, həbsdəki sabiq prezidenti məlumatlandırması Paşinyana qarşı birbaşa təhqirdir. Bu onu göstərir ki, Paşinyan öz pozucu qərarları ilə KTMT və Avrasiya İqtisadi İttifaqındakı hərbi-siyasi və iqtisadi müttəfiqlərinin güvənini hələ də qazana bilməyib. Onların fikrincə, Nazarbayevin Köçəryana məktubu həm də Paşinyanın bir siyasətçi kimi avtoritetinin olmadığını sübut edir.

Görünən odur ki, Nazarbayevin məlum məktubu və orada səslənən fikirlər həm Paşinyana etimadsızlığın göstəricisidir, həm də Köçəryanın siyasi perspektivinə, bir növ, dolayı dəstək verməsi anlamına gəlir. Nazarbayev hazırda prezident olmasa da, adi bir şəxs deyil.

Yeri gəlmişkən onu da qeyd edək ki, ötən ilin dekabrında Rusiya Prezidenti Vladimir Putin həbsdə olan Köçəryana yeni illə bağlı təbrik məktubu ünvanlamışdı. Bütün bunlar Paşinyana göstərilən saymazyana münasibətin əyani göstəricisidir. Paşinyanın azca nüfuzu olsaydı, hər halda bu kimi məqamlar nəzərə alınardı.

O baxımdan, Nazarbayevin məlum addımını ekspertlər necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sözlərinə görə, Nazarbayevin Köçəryana məktubu, əslində, siyasi baxımdan Paşinyana zərbədir:** "Baxmayaraq ki, Nazarbayevlə Köçəryan eksprezident statusuna malikdirlər. Köçəryan prezident olanda Nazarbayevlə xüsusu özəl münasibətlərə malik olması o qədər də bilinməyib. Daha dəqiq desək, belə bir halı xatırlamıram. Onların münasibətləri MDB və KTMT çərçivəsində adi münasibətlər idi. Tərəflər arasında ola bilsin müəyyən ikitərəfli münasibətlər olub, amma bu elə də nəzərə çarpmayıb. Qazaxıstan daha çox Azərbaycanın maraqlarını dəstəkləyib. Ermənistan Gömrük İttifaqına qəbul olunanda Serj Sarkisyan istəyirdi ki, Dağlıq Qarabağ da həmin imkanlardan istifadə etsin. Ancaq Nazarbayev buna imkan vermədi və Sarkisyandan sözügedən məsələ ilə bağlı izahat istədi. Ona xatırlatdı ki, Gömrük İttifaqı Dağlıq Qarabağa şamil olunmur. Beləliklə, sözügedən məsələyə nöqtə qoyuldu. Hazırda Nazarbayevlə Köçəryan istefadadırlar. Ancaq indiki məqamda Nazarbayevin Ermənistanın keçmiş prezidentinə məktub ünvanlaması müəyyən suallar yaradır. Ola bilsin ki, Nazarbayev Rusiya ilə həmrəyliyini göstərir. Ancaq bütün bunlarla yanaşı, Nazarbayevin məktubu, dolayısı da olsa, Paşinyana və onun hakimiyyətinə bir zərbədir. Çünki Ermənistanla müəyyən ittifaqlarda təmsil olunan ölkələr artıq başa düşürlər ki, Paşinyanın siyasi xətti onlara zərər vurur. Söhbət Paşinyanın KTMT sədrinin seçilməsi məsələsində tutduğu pozucu mövqedən və digər məsələlərdən gedir. Ona görə də bu kimi məsələlərdə Paşinyanın mövqeyini nəzərə almırlar. O baxımdan, Nazarbayevin məlum davranışını Köçəryana münasibətdə bir siyasi jest kimi də qəbul etmək olar. Bütün hallarda, Qazaxıstan, faktiki olaraq, Paşinyanın maraqlarına zərbə vurur".

***Vidadi ORDAHALLI***

# Paşinyandan "ya sülh, ya müharibə" seçimini Azərbaycanın üstünə uğursuz atmaq cəhdi...

**"Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə aparılan danışıqlar davam edir. Tərəflər danışıqlarda dürüst və eyni dalğada olmalıdır". Bunu Ermənistanın baş naziri Nikol Paşinyan nazirlərin Moskva görüşünü şərh edərkən deyib.**



*"Ermənistanı sülhə məcbur etmək üçün ordu öz qətiyyətini göstərməlidir"*

## *Əli Orucov: "Bir tərəfdən müharibə, yeni işğal hədələri ilə çıxış edən Paşinyan guya sülhə hazır olduğunu göstərməyə çalışır"*

Daha sonra Paşinyan erməni xislətinə xas olan tərzdə riyakarcasına və heç bir əndazəyə sığmayan formada Azərbaycanı münaqişənin hansı yolla həllinə tərəfdar olduğunu dəqiqləşdirməyə çağırıb: "Davos, Vyana, Sankt-Peterburq və Düşənbədəki görüşlərin ruhu sülh yolu ilə nizamlanma üzərində işləmək zərurətindən irəli gəlirdi. Ümid edirəm ki, bu impulslar səmimidir, çünki kimsə danışıqlar masası arxasında başqasını aldatmağa çalışsa, onda heç nə alınmayacaq və biz yanlış yerə gedib çıxacağıq. Biz (Ermənistan) sonadək sülhü təşviq etmirik. Biz, ümumiyyətlə, heç nəyi təşviq etmirik, amma problemin həlli üçün müəyyən platformanın yaradılmasını təklif edirik. Ermənistanı müharibə ilə qorxuda bilməzsiniz. Biz də heç kimi müharibə ilə qorxutmuruq. Onda gəlin nəhayət qərar verək - məsələni sülh platformasında həll edək, ya yox. İstənilən sağlam düşüncəli insan sülh variantı üzərində işləməlidir. Əks halda, danışıqların mənası yoxdur".

Qeyd edək ki, aprelin 15-də Moskvada Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovla Ermənistanın XİN rəhbəri Zohrab Mnatsakanyan arasında görüş keçirilib. Görüşdə Minsk Qrupunun həmsədr ölkəsinin xarici işlər naziri kimi Rusiya XİN başçısı Sergey Lavrov da iştirak edib. Daha sonra Minsk Qrupunun həmsədrləri Dağlıq Qarabağ probleminin həlli istiqamətində nazirlərin üçtərəfli danışıqlarına qatılıblar.

Sözügedən görüşü Paşinyanın provokativ formada şərh etməsi və Azərbaycanı həyasızcasına seçim etməyə çağırması açıq-aşkar Ermənistan baş nazirinin danışıqlarda səmimi olmadığını göstərir. Bu onu göstərir ki, Ermənistan tərəfi yenə də danışıqların nəticəsiz müstəvidə davam etməsində maraqlıdır. Çünki Paşinyanın danışıq tonu bu qənaətə gəlməyə əsas verir.

Maraqlıdır, bəs ekspertlər Paşinyanın aqressiv və pozucu tərzdə danışıqlarla bağlı açıqlama verməsini necə şərh edirlər?

**Məsələyə münasibət bildirən AMİP funksioneri Əli Orucovun sözlərinə görə, Paşinyan hər dəfə danışıqlarla bağlı radikallığını artırır:** "Onun məlum şərhi bir daha bunu göstərdi. Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Moskvada keçirdikləri sonuncu görüşü şərh edən erməni baş nazirin necə riyakar və ikiüzlü olduğunu bir daha gördük. Paşinyan açıqlaması ilə bunu açıq formada göstərdi. Bir tərəfdən müharibə, yeni işğal hədələri ilə çıxış edən Paşinyan guya sülhə hazır olduğunu göstərməyə çalışır. Azərbaycanın mövqeyinin yenidən müəyyənləşdirilməsinə ehtiyac yoxdur. Çünki Azərbaycanın münaqişə ilə bağlı mövqeyi aydındır. Həmçinin, ərazi bütövlüyü çərçivəsində kompromislərə hazırdır. Bunun o tərəfi separatçı rejimə müstəsna status verməkdir. Ona da Azərbaycan getməyəcək. Çünki dövlət içində dövlət yaratmaq mümkün deyil. Lakin Ermənistan tərəfi hər dəfə sülhə çox yaxın olan nadir vəziyyətlərdə destruktiv addımlara və təxribatlara yol verərək sülh prosesini pozub. İndi də eyni siyasi kurs davam etdirilir.

Yeni hər necə olursa-olsun, danışıqlar prosesini dalana dirəmək istəyirlər. Hər kəsə məlumdur ki, Ermənistan işğalçılıq siyasətinə haqq qazandırmaq və torpaqları işğalda saxlamaq üçün hər varianta əl atır. Əslində, erməni tərəfi sülhə hazır deyil. Eyni zamanda, təxribatçılıqla məşğuldur. Ermənistanı sülhə məcbur etmək üçün ordu öz qətiyyətini göstərməlidir".

***Vidadi ORDAHALLI***

# NATO-Rusiya əlaqələri tam kəsildi, Rusiyanın "sərhədlər boyu xoşniyyətli qonşuluq kəməri" ideyası - yeni prosesin Azərbaycana mühüm dəxli var...

**NATO ilə Rusiya arasındakı gərginlik özünün ən pik həddinə çatıb. Belə ki, Rusiyanın xarici işlər nazirinin müavini Aleksandr Qruşko aprelin 15-də Rusiyanın NATO ilə mülki və hərbi əlaqələr üzrə əməkdaşlığı tamamilə dayandırdığını bildirib. O, həmçinin, İttifaqın nümayəndələrini hərbi xətt vasitəsilə iş əlaqələrini dayandırmaqda ittiham edib və bu qərarı absurd adlandırıb: "Bugünkü Rusiya-NATO əlaqələri elə NATO-nun "soyuq müharibə" dövründə yaradıldığı adi vəziyyəti xatırladır.**



NATO-nun Rusiya ilə münasibətlərinin yaxşılaşacağı gündəmdə deyil. Belə bir şey yoxdur. NATO-nun bu dalandan necə çıxacağının əlamətləri yoxdur".

Qruşko bildiirb ki, NATO-nun ötən il ərzində hərbi xərcləri trilyon dolları ötüb, bu isə "Rusiyanın hərbi müdafiə xərclərindən 22 dəfə çoxdur". O qeyd edib ki, Moskva NATO ilə hərbi büdcələri qurmaq üçün yarışa qatılmayacaq, amma iqtisadi, dəqiq və səmərəli vasitələrə diqqət yetirəcək: "NATO ilə silahlı münaqişəyə gəldikdə, sağlam düşüncəli insanlar bunun baş verməyəcəyinə ümid edirlər. Bu, bəşəriyyət üçün fəlakət ola bilər. Əminəm ki, bunu Vaşinqtonda da, Brüsseldə də bilirlər".

Daha əvvəl NATO nümayəndələri Rusiya ilə münasibətlərin kəsilməsinə görə məsuliyyəti Kremlin daşıdığını deyərək, dəfələrlə Rusiyanı təcavüzkar siyasətdən əl çəkməyə çağırıblar.

NATO-nun baş katibi Yens Stoltenberq aprelin əvvəlində ABŞ Konqresində çıxış edərək "Biz mübarizə aparmaq deyil, qarşısını almaq istəyirik. Rusiyanı təcrid etmək istəmirik, amma Rusiya ilə daha yaxşı qarşılıqlı əlaqə qurmaq istəyirik" deyib.

Onun fikrincə, Rusiyanın NATO ilə dialoqu bərpa etməsi üçün lazım olan addımlar arasında orta və qısaməsafəli raketlər haqqında sazişə qayıdılması, Kerç boğazında tutulan ukraynalı dənizçilərin azad edilməsi, Donbasda vurulan Malayziya "Boeinq"inin günahının boynuna alınması və Donbasla bağlı Minsk sazişinə riayət etməsi əsas müddəalardır.

Artıq tərəflər arasında Qara dəniz hövzəsində də münasibətlər gərginləşmək üzrədir. ABŞ-ın Hərbi Dəniz Qüvvələrinə məxsus "Ross" gəmisinin Qara dəniz hövzəsində Rusiya gəmiləri tərəfindən izləndiyi bildirilir. Qeyd olunur ki, Qara dəniz hövzəsinə daxil olduqdan sonra "Ross"u donanmanın sahil radiotexniki vasitələri nəzarətə götürüb. Bundan əlavə, Amerika gəmisinin "Vasiliy Bıkov" patrul gəmisi və "İvan Xurs" kəşfiyyat gəmisi tərəfindən müşahidə edildiyi bildirilir.

Son illər Rusiya öz sərhədləri yaxınlığında NATO-nun indiyə qədər görünməmiş aktivliyi ilə üzləşir. NATO bunu "Rusiya aqressiyasının saxlanması" adlandırır. Bu arada Kremldə vurğulanır ki, Moskva digər ölkələr üçün təhdid deyil, lakin onun maraqları üçün təhlükə olan hərəkətləri cavabsız qoymayacaq.

Artıq Rusiyanın Çinlə birgə hərbi təlimlərə başlamasını da NATO-ya verilən cavab kimi xarakterizə edirlər. Rusiyanın xarici işlər naziri Lavrovun bu xüsusda verdiyi açıqlama xüsusilə diqqəti çəkir. NATO ilə yaşanan gərginliyin fonunda Lavrov deyib ki, biz Rusiya sərhədlərinin bütün perimetri boyu xoşniyyətli qonşuluq kəmərlərini möhkəmləndirəcəyik. Rusiyanın sərhədlərinin perimetrinə biz də düşürük. Lavrovun bu açıqlamasından hansı nəticəni çıxarmaq olar və hadisələrin bu gedişi Azərbaycan-NATO münasibətlərinə necə təsir göstərə bilər?

**Politoloq Əhəd Məmmədli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, NATO ilə Rusiya arasındakı münasibətlər hər zaman gərgin olub:** "Rusiya, faktiki olaraq, SSRİ-nin siyasi varisidir. Bu baxımdan da Rusiya-NATO münasibətlərinə SSRİ-NATO münasibətləri kontekstindən də yanaşa bilərik. "Soyuq müharibə" dönəmində SSRİ ilə NATO arasında ciddi silah yarışması həyata keçirilirdi. Sonda bu rəqabətdə SSRİ uduzdu və bunun da məntiqi sonluğu quruluşun dağılması ilə yadda qaldı. İndi də məsələ elədir. Rusiya özündən qatqat güclü olan bir Alyansla rəqabətə girişib. NATO-ya daxil olan ölkələrin iqtisadi gücləri həddən artıq çoxdur. Rusiya desə də ki, rəqabət aparmır, bunu inandırıcı saymaq olmaz. Məhz silah rəqabətinin aparılması həmin ölkənin iqtisadiyyatını sarsıdır. Lavrovun yumşaq dillə ifadə etdiyi xəbərdarlığa gəldikdə isə, bəli, ondan bizə də pay düşür. Çünki biz həmin sərhəddə yerləşirik. Bilirsiniz ki, Azərbaycan xarici siyasət kursunda balanslı siyasət həyata keçirir. Həm NATO, həm də Rusiya ilə eyni məsafədə dayanır. Güman edirəm ki, bu siyasət davam ediriləcək. Təbii ki, Rusiya bizi müəyyən provokasiyalara çəkməyə cəhd edəcək. Ona görə də biz buna ciddi şəkildə hazır olmalıyıq. Xüsusən də bu gərgin məqamlarda biz NATO üzvü olan, eyni zamanda, Rusiya ilə yaxın dostluq edən qardaş Türkiyə ilə birlikdə addımlamalıyıq. Çalışmalıyıq ki, bu iki nəhəng gücün qarşıdurmasından zərərsiz çıxaq. Bu bizim oyunumuz deyil, ona görə də neytral qalmağımız, provokasiyalara uymamağımız daha məqsədəuyğundur".

*Məhəmmədəli QƏRİBLİ*

# Hakimiyyətdən müxalifətə "istənilən dialoqa hazırıq" mesajı...

**Hakim Yeni Azərbaycan Partiyasının üzvü, deputat Aydın Mirzəzadə maraqlı təkliflə çıxış edib. O təmsil etdiyi partiyanın müxalif cameə ilə dialoqlara hazır olduğunu deyib: "Müxalifət tərəfindən hər hansı məsələnin müzakirəsi ilə bağlı təkliflər edilsə, bu, nəzərdən keçiriləcək. Dialoq ümumilikdə götürdükdə mühit deməkdir.**

***Aydın Mirzəzadə:*** *"Siyasi təsisatlar olaraq, onlar ancaq siyasi partiya ilə dialoq apara bilərlər"*

***Tural Abbaslı:*** *"Biz istərdik ki, Prezidentin özünün də iştirakı ilə ölkənin tanınmış müxalif partiyalarının qatılacağı "dəyirmi masa" keçirilsin"*

***Xəzər Teyyublu:*** *"Yaxşı olar ki, taleyüklü problemlərimizlə bağlı olan müzakirələr üçün hakim partiyanın özü müxalifəti bir masa arxasına dəvət etsin"*







Tərəflərin öz mövqeyini bildirməsi, qanun və sivillik çərçivəsində polemikaya gedilməsi, öz arqumentlərini irəli sürməklə söhbət aparılmasıdır. Hesab edirəm ki, bu məsələdə problem yoxdur. Sosial şəbəkələrdə fərqli fikirlərin yayılmasını, iqtidar-müxalifət polemikasını görürük. Birbaşa dialoq səviyyəsində görüş məsələsinə gəldikdə isə, Yeni Azərbaycan Partiyası hər zaman görüşlərə, dialoqlara hazırdır. Bu münasibətə qapıları həmişə açıqdır. Müxalifət tərəfindən görüşlə, hər hansı məsələnin müzakirəsi ilə bağlı təkliflər olarsa, bu, nəzərdən keçiriləcək. Üzv olduğum partiya hər zaman Azərbaycanda demokratiyanın olmasına çalışır, müxtəlif fikirlərin səsləndirilməsinə hörmətlə yanaşır".

Maraqlıdır, bəs müxalif dairələr necə, hakim partiya tərəfindən səsləndirilən bu çağırışa razıdırlarmı?

**Müxalif Ağ Partiyanın sədri Tural Abbaslı qəzetimizə açıqlamasında bildirdi ki, onlar dialoq təklifinə çox müsbət yanaşırlar:** "Amma hesab edirəm ki, belə bir təklif bir partiya funksioneri səviyyəsində səsləndirilməməlidir. Hesab edirəm ki, bu təklif hakimiyyət adından danışmaq səlahiyyəti olan daha böyük vəzifə sahibi tərəfindən irəli sürülməlidir. Yəni medianın xoşuna gəlsin deyə növbətçi bir bəyanat kimi verilməməlidir. Şəxsən mən hesab edirəm ki, biz bu dialoqu YAP-la deyil, hakimiyyətlə aparmalıyıq. Çünki problemlərin çözülməsi kimi səlahiyyətlər partiyanın deyil, hakimiyyətin əlindədir. Şəxsən biz istərdik ki, Prezidentin özünün də iştirakı ilə ölkənin tanınmış müxalif partiyalarının qatılacağı "dəyirmi masa" keçirilsin. Hesab edirəm ki, bu, mədəniyyət xadimləri ilə baş tutdusa, partiyalarla da baş tuta bilər. Həmin "dəyirmi masa"da biz ölkə qarşısında duran problemləri dialoq vasitəsilə müzakirə edib, həllinə nail ola bilərik. Bir daha deyirəm ki, biz təklifi daha səlahiyyətli adamların dilindən eşitmək istərdik".

**Klassik Xalq Cəbhəsi Partiyasının funksioneri Xəzər Teyyublu "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, hakim partiya tərəfindən belə bəyanatların səslənməsinin çox şahidi olublar:** "Hesab edirəm ki, dialoqun olması üçün zəruri mühit yetişməlidir. Hələ ki, biz belə ağır böhranı müşahidə etmirik. Belə bir dialoq keçirilsə, ən vacib olan Dağlıq Qarabağ məsələsidir. Həmçinin, azad seçkinin keçirilməsi ilə bağlı olan məsələdir. Əlbəttə, bu məsələdə müxalifət dövlətçilik mövqeyindən çıxış edir. Aydın Mirzəzadə belə bir təklifi niyə müxalifətdən gözləyir? Yaxşı olar ki, taleyüklü problemlərimizlə bağlı olan müzakirələr üçün hakim partiyanın özü müxalifəti bir masa arxasına dəvət etsin. Belə bəyanatlar indiyə qədər çox olduğundan, səmimiliynə inanmıram. Bəlkə də bunun nəticəsidir ki, biz ciddi məsələlərlə bağlı bir araya gələ bilmirik. Ölkədəki siyasi partiyaların fəaliyyətində bir durğunluq var. Bu səbəbdən də partiyaların heç də hamısı ölkənin ictimai-siyasi həyatında yaxından iştirak edə bilmir. Hər halda, istərdik ki, Aydın müəllimin səsləndirdiyi fikirlər reallığa çevrilsin. Mən istərdim ki, Qarabağ və azad seçki naminə belə bir dialoq baş tutsun. Həmin tədbirə hakim partiya heç bir ayrıseçkilik salmadan bütün siyasi müxalifəti dəvət etməlidir. Belə olsa, heç bir müxalif partiya bundan qaça bilməz".

Müxalif partiya nümayəndələrinin dialoq formatına fərqli yanaşması və onların birbaşa Prezidentlə görüşmək istəməsi ilə bağlı reaksiyasına hakim partiya adından dialoqa hazır olmaları ilə bağlı təklifi irəli sürən **YAP funksioneri, millət vəkili Aydın Mirzəzadənin özünün münasibətini öyrəndik.** O, "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, onun təklifində siyasi partiyalar arasındakı dialoqdan söhbət gedib: "O ki, qaldı Prezidentə, cənab İlham Əliyev bütün Azərbaycan vətəndaşlarını təmsil edir. İqtidarlı-müxalifətli bütün vətəndaşların problemlərinin həllində səlahiyyətli şəxs sayılır. Onun hansısa dialoqda bir tərəfi təmsil etməklə iştirakına ehtiyac yoxdur. Bu başqa məsələ ki, siyasi müxalifətin nümayəndələri hansısa bir problemin həllini dövlət başçısı qarşısında qaldıra bilərlər. Bunu yazılı şəkildə, təklif formasında da edə bilərlər. Ancaq siyasi təsisatlar olaraq, onlar ancaq siyasi partiya ilə dialoq apara bilərlər".

*Məhəmmədəli QƏRİBLİ*

# NATO və Rusiya "soyuq müharibə" dövrünün ilk aylarındakı vəziyyətə qayıtdı - silahlanma yarışı yenidən qızışır...

**Yaxın Şərqdə, o cümlədən Liviya və Suriyada, Asiyada, Qafqazda, Venesuelada mövqeləri getdikcə daha çox toqquşmağa başlayan ABŞ və Rusiyanın yenidən bir-birini hərbi müstəvidə də daha çox hədələməsi, ekspertlərə görə, indi bütün dünya üçün müsbət heç nə vəd etmir. Məsələnin narahatlıq yaradan tərəflərindən biri prosesə artıq NATO-nun da qoşulması, Rusiyanın isə Çin, İran kimi ölkələri öz yanına çəkə bilməsidir.**



Məhz bu şəraitdə tərəflər arasında ziddiyyətlərin daha təhlükəli xarakter alması özünü qabarıq surətdə büruzə verir.

Real vəziyyəti təhlil edən əksər ekspertlər tərəflərin qızğın silahlanma yarışına da başladığına diqqət çəkərək, artıq yeni "soyuq müharibə"nin başlandığını da bildirirlər. Bu "soyuq müharibə"nin hər an qaynar fazaya keçə biləcəyi də əsas təhdidlər sırasında yer alır. Belə vəziyyətdə təhlükənin miqyasının kifayət qədər böyük olduğunu təsdiqləyən daha bir açıqlama isə Moskvadan gəlib. Belə ki, Rusiyanın xarici işlər nazirinin müavini Aleksandr Qruşko Moskvanın NATO ilə mülki və hərbi əlaqələr üzrə əməkdaşlığı tamamilə dayandırdığını bildirib. O, həmçinin, İttifaqın nümayəndələrini hərbi xətt vasitəsilə iş əlaqələrini dayandırmaqda ittiham edib və bu qərarı "absurd" adlandırıb: "Bugünkü Rusiya-NATO əlqələri elə NATO-nun "soyuq müharibə" dövründə yaradıldığı "adi" vəziyyəti xatırladır. NATO-nun Rusiya ilə münasibətlərinin yaxşılaşacağı gündəmdə deyil. Belə bir şey yoxdur. NATO-nun bu dalandan necə çıxacağının əlamətləri yoxdur". Qruşko bildiirb ki, NATO-nun ötən il ərzində hərbi xərcləri trilyon dolları ötüb, bu isə Rusiyanın hərbi müdafiə xərclərindən 22 dəfə çoxdur: O qeyd edib ki, Moskva NATO ilə hərbi büdcələri qurmaq üçün yarışa qatılmayacaq, amma iqtisadi, dəqiq və səmərəli vasitələrə daha çox diqqət yetirəcək: "NATO ilə silahlı münaqişəyə gəldikdə, sağlam düşüncəli insanlar bunun baş verməyəcəyinə ümid edir. Bu, bəşəriyyət üçün fəlakət ola bilər. Əminəm ki, bunu Vaşinqtonda da, Brüsseldə də bilirlər". Qruşko onu da qeyd edir ki, NATO-nin Qara dənizdəki fəaliyyəti regional sabitliyə ciddi zərbə vurur: "Əlbəttə, NATO-nun regionda artan fəaliyyətinə və təhdidlərinə qarşı tədbirlər görəcəyik. Alyansın fəaliyyətini yaxından izləyirik".

Daha əvvəl NATO nümayəndələri Rusiya ilə münasibətlərin kəsilməsinə görə məsuliyyəti Kremlin daşıdığını deyərək, dəfələrlə Rusiyanı "təcavüzkar" siyasətdən əl şəkməyə çağırıb. NATO-nun baş katibi Yens Stoltenberq isə bildirir ki, Rusiyanın NATO ilə dialoqu bərpa etməsi üçün lazım olan addımlar arasında orta və qısaməsafəli raketlər haqqında sazişə qayıdılması, Kerç boğazında tutulan ukraynalı dənizçilərin azad edilməsi, Donbasda vurulan Malayziya "Boeinq"inin günahının boynuna alınması və Donbasla bağlı Minsk sazişinə riayət etməsi əsas müddəalardır. Moskva isə bütün bunları rədd edir.

NATO-nun Avropadakı Birləşmiş silahlı qüvvələrinin baş komandanı Kertis Skaparotti belə vəziyyətdə proseslərin təhlükəli məcraya qədəm qoyduğunu bildirir. Onun fikrincə, Rusiya və Qərb ölkələri daha sıx əlaqələri dəstəkləməlidir ki, bir-birinin niyyətlərini daha yaxşı anlasınlar: "Dövlətlər arasında dialoqun aktiv olmaması silahlı qarşıdurmaya gətirib çıxara bilər. "Soyuq müharibə" dövründə bir-birimizin siqnallarını anlayırdıq. Biz danışırdıq. Məni narahat edən odur ki, bu gün biz rusları anlamırıq". Amerika generalı hesab edir ki, məhz bu da dəşhətli savaşa rəvac verə bilər.

Hesab edilir ki, NATO və Rusiya arasında savaşın başlanma məkanları qismində indi İran və Ukrayna kimi yerlər çıxış edir. Xüsusən də NATO-nun qüvvələrini tədricən Qara dənizə yerləşdirməsi vəziyyəti burada daha da kəskinləşdirir. Eyni zamanda İran amili də getdikcə ön plana çıxır. Çünki ABŞ-ın İrana hücum ehtimalı artır və Moskva da bu prosesə seyrçi qalmaq niyyətində deyil. Amerikalı ekspertlər bildirirlər ki, İran böyük hərbi güclər arasında növbəti savaş məkanına çevrilə bilər. Hesab olunur ki, ABŞ-ın İslam İnqilabı Keşikçiləri Korpusunun adını xarici terror təşkilatları siyahısına daxil etməsi İrana hərbi müdaxilənin hüquqi bazasının yaradılmasıdır. 2008-2018-ci illərdə Dövlət Departamentinin profil bölməsində işləmiş Ceyson Blazakis hesab edir ki, ABŞ-ın bu addımı praktiki baxımından heç bir təsirə malik olmasa da, bu, hərbi müdaxiləyə zəmin yaratmaq planının bir hissəsidir. Ağ Evin Milli Təhlükəsizlik Şurasının keçmiş hüquq məsləhətçisi Tessa Bridjmen qeyd edib ki, ABŞ Tehran və "Əl-Qaidə" terror təşkilatı arasında birləşdirici xətt yaratmaq istəyir: "Tramp administrasiyası, nə qədər inandırıcı görünməsə də, İran və "Əl-Qaidə" arasında bağlayıcı xətlərin olması haqqında stereotipi yaratmağa çalışır". Ekspertlər hesab edirlər ki, İslam İnqilabı Keşikçiləri Korpusunun adının terror təşkilatları sırasına daxil edilməsinin səbəblərindən biri də 2001-ci ildən sonra Konqresin terrora qarşı mübarizədə Ağ Ev rəhbərinə hərbi güc tətbiq etmə icazəsini qeyd-şərtsiz verməsidir. Bu mənzərə yaranandan sonra Tramp Tehranı bombalamaq üçün Konqresdən icazə istəyəcək.

Amma yuxarıda qeyd olunduğu kimi, prosesə Rusiyanın, ardınca Türkiyə və Çinin də qarışması vəziyyəti daha dəhşətli məcraya yönləndirəcək.

***Nahid SALAYEV***



## Çavuşoğlu: "Bütün dünya Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal olunduğunu qəbul edir"

**Bütün dünya Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal olunduğunu qəbul edir. "Trend"in məlumatına görə, bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu deyib.**

Nazir qeyd edib ki, buna baxmayaraq, Ermənistan işğal etdiyi torpaqları azad etmir.

**Türkiyənin yaxın tezlikdə Rusiyadan alacağı S-400 zenit-raket komplekslərini müvəqqəti olaraq Azərbaycanda yerləşdirə biləcəyinədair məlumatlar işğalçı Ermənistanda böyük ajiotaj yaradıb. Türkiyənin hansı məqsədlə belə bir addım atacağı dəqiq bilinməsə də, hesab edilir ki, bu hal Vaşinqton və Ankara arasında gərginliyi, əslində müəyyən qədər yumşalda bilər.**

# Türkiyəyə satılan Rusiya S-400-ləri əvvəlcə Naxçıvanda quraşdırıla bilər - ermənilər təlaşda...



Aydındır ki, Türkiyənin belə bir istəyi olsa, Azərbaycan buna etiraz etməyəcək. Türkiyə mediası da məsələyə bu prizmadan yanaşır və yazır ki, Türkiyə Rusiyadan aldığı S-400 hava-dan müdafiə sistemlərini müvəqqəti olaraq Azərbaycanda və ya Qətərdə saxlaya bilər. Qeyd edək ki, daha öncə S-400 zenit raket komplekslərinin hərbi heyətinin Azərbaycanda təlimlər keçəcəyi ilə bağlı xəbər verilmişdi. Bunun üçün türk hərbçilərin Rusiyadan əvvəl Azərbaycana gələcəkləri gözlənir. Bildirilir ki, Türkiyə S-400 zenit-raket komplekslərini almazdan əvvəl hərbçilərinin müvafiq kurs keçməsini təşkil etmək istəyir. Onlar Azərbaycanda, xüsusilə S-300 raketləri ilə yaxından tanış olacaqlar. Heyət yaz aylarının sonunda Rusiyaya üz tutacaq, 2020-ci ilin yanvarında isə Ankaraya qayıdacaq.

Qeyd olunduğu kimi, Ankaranın S-400 raketlərini Azərbaycan ərazisində yerləşdirib-yerləşdirməyəcəyi hələ dəqiq bəlli deyil. Amma bu hal indidən Ermənistanda böyük təşvişə yol açıb. Ümumiyyətlə, hələ lap əvvəldən Türkiyə ilə Rusiya arasında S-400 raketlərinin təchizatına dair əldə edilmiş razılaşma Ermənistan siyasi-hərbi dairələrində böyük narahatlıqla izlənməkdədir. Ermənilər bildirir ki, Rusiya Azərbaycanla kifayətlənməyib ermənilərin digər düşməninə, yəni Türkiyəyə də müasir silahlar satır. İddia olunur ki, bu hal uzunmüddətli planda Ermənistana təhlükə yaradacaq. Bundan əvvəl isə Ermənistandakı Beynəlxalq Münasibətlər və Təhlükəsizlik Məsələləri İnstitutunun rəhbəri Stefan Səfəryan vurğulayırdı ki, Türkiyə Rusiyadan almağa hazırlaşdığı S-400 "Triumf" zenit-raket komplekslərindən birini Naxçıvanda yerləşdirə bilər: "Əgər başqa yerlərdə Türkiyə Azərbaycana kömək edə bilməsə də olduqca əlçatan olan Naxçıvanda Hava Hücumundan Müdafiə sistemləri yerləşdirə bilər. Naxçıvan isə Türkiyə və Azərbaycan tərəfdən möhkəmləndirildikdən sonra İrəvanı və bütün Ararat vadisini təhdid edəcək. Xüsusən də nəzərə alanda ki, Azərbaycanla Türkiyə arasında qarşılıqlı hərbi yardım haqqında müqavilə imzalanıb.

**Bu müqavilənin məzmunu məlum deyil, lakin Azərbaycanla Türkiyə arasında hərbi əməkdaşlıq ağlasığmaz dərəcədə dərindir. Deməli, bu planda S-400 sistemlərinin verilməsi Ermənistanı narahat etməlidir". Məhz belə vəziyyətdə Türkiyə mediasında S-400 sistemlərinin Azərbaycanda yerləşdiriləbiləcəyinə dair məlumatlar yayması erməniləri kifayət qədər ciddi şəkildə narahat edir.**

Erməni ekspertlər Türkiyə tərəfinin S-400 sistemlərindən birinin Ermənistanla sərhəddə yerləşdiriləcəyi haqda bəyanatlarını bu fonda yenidən xatırladır. Bildirilir ki, həmin sistemlər artıq təkcə Türkiyənin müdafiəsi üçün deyil, Azərbaycanın maraqları üçün də istifadə olunacaq. Erməni mediası isə yazır ki, Rusiyanın hərbi müdafiəsi Ermənistan üçün o qədər də etibarlı olmayıb və yeni proseslər də bunun təsdiqidir.

Hazırda ermənilərin əsas ümidi S-400 sistemlərinin Türkiyə tərəfindən alınmasını əngəlləmək üçün ABŞ-ın Ankaraya təzyiqlərinədir. Amma Anadolu Aydınlar Ocağının sədri İbrahim Öztək bildirir ki, Ankara istənilən halda tezliklə S-400 sistemlərinə sahib olacaq. Öztək xatırladıb ki, hələ 22 iyun 2012-ci ildə Suriya Türkiyəyə məxsus "RF-4E Fantom" tipli bir qırıcını vurub: "Müharibənin lap əvvəlindən Suriyadan Türkiyə ərazisinə xeyli raketlər atılırdı. Ölən və yaralananlar oldu. Halbuki, o tarixdə düşmən hücumlarından qorunmaq üçün ABŞ, Almaniya və Hollandiyada hava hücumundan müdafiə sistemləri olan "Patriot" raketləri gətirilərək Türkiyə sərhədlərinə yerləşdirilmişdi. Fəqət bu sistemlər heç bir raketin qarşısını ala bilmədi. Bir işə yaramadığını görüb, 2015-ci ildə bu sistemləri sökərək geri qaytardılar. İndi Türkiyə müdafiəsini gücləndirmək üçün S-400 sistemlərini almaqda israrlıdır və ABŞ-ın etirazları da burada hansısa rol oynamayacaq". Onun sözlərinə görə, Birləşmiş Ştatlar Koreya müharibəsindən sonra Türkiyəni daim aldadır və onunla oyun oynayır: "Müttəfiqliyimiz həmişə ABŞ-ın xeyrinə olur. O, dost görünüb, daim düşmənçilik edir. Baş verən önəmli hadisələr göstərir ki, ABŞ bizim dostumuz deyil. ABŞ Marşal yardımları ilə bizim gözümüzü bağlayıb və Türkiyədə olan üç təyyarə fabrikini qapayıb. İllər öncə Yunanıstanın Rusiyadan Türkiyəyə qarşı aldığı və Krit adasına yerləşdirdiyi "S-300" raketləri ilə bağlı səsini çıxarmadı". Onun sözlərinə görə, Birləşmiş Ştatların Suriyadan çıxmasının önəmi qalmayıb. Çünki Amerika Suriyada on hərbi baza qurub: "Colan təpələrini İsrail ərazisi kimi tanıyan ABŞ yaxında Suriyada kürd dövlətini elan etməkdən çəkinməyəcək. Bu gün Suriya neftindən çox Aralıq dənizinin şərqində olan neft-qaz dəyər qazanıb.

**ABŞ, Avropa İttifaqı, Kipr, Misir, İsrail, Livan və Qətərin işbirliyi Türkiyə əleyhinə formalaşmaqdadır. Türkiyə dörd bir tərəfdən mühasirəyə alınıb. Mühasirə daim daralmaqdadır, ətrafımızda heç bir dostumuz qalmayıb". Bu vəziyyətdə ekspert Rusiya və Türkiyə arasında yaxınlaşmanın davam edəcəyini də vurğulayır.**

***Tahir TAĞIYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# "Onda biz tək Qarabağı yox, Ermənistanı da itirməli olacağıq..."

**Rusiya və Ermənistan arasında kəskinləşməkdə davam edən münasibətlər fonunda Moskvanın Dağlıq Qarabağ münaqişəsi ilə İrəvana qarşı sərt gedişlər edə biləcəyinə dair yeni maraqlı fikirlər meydana atılmaqdadır. Əsasən də rus ekspertlər tərəfindən irəli sürülən bu fikirlərdə diqqət ona yönəlir ki, Kremlin bütün gözləntilərinə rəğmən, İrəvan Rusiyanın gözləntilərini doğrultmayaraq, Moskvaya qarşı addımlar atmaqda davam edir.**

Bu xüsusda son günlərdə diqqət İrəvanın Rusiya telekanallarına qarşı sərt mövqeyinə yönəlib.

Xatırladaq ki, Ermənistan ərazisində rus kanallarının yayımını məhdudlaşdırmağı düşünür. Belə bir vaxtda isə Ermənistanın baş naziri Nikol Paşinyan Rusiya telekanallarını dəqiq olmağa çağırıb. Qeyd edək ki, Rusiya telekanalları Ermənistanın keçmiş prezidenti Robert Köçəryanın siyasi baxışlarına görə təqib edilməsi barədə reportaj hazırlayaraq efirə verib. Bu da Nikol Paşinyanın xoşuna gəlməyib və o, həmin telekanallara müraciət edərək deyib: "İstənilən teleşirkət başqa bir dövlətin ərazisində fəaliyyət göstərdiyini unutmamalıdır. Əks halda, doğru olmayan sahələrdə olacağıq. Hesab edirəm ki, Rusiya telekanalları bu problemi nəzərə alıb uyğun nəticə çıxaracaq. Mən başqa bir dövlətin ərazisində informasiya siyasətinin həyata keçirilməsindən bəhs edirəm".

Baş verənlərlə bağlı Rusiyanın "rosbalt.ru" portalı yazır ki, telekanallarla bağlı məsələ Ermənistana Qarabağ münaqişəsindən tutmuş digər sahələrə qədər böyük bir diapazonda baha başa gələ bilər. Eyni zamanda sayt yazır ki, bütün bunlar Ermənistan parlamentində 20 il əvvəl törədilmiş məlum terror aktına görə Rusiyaya, o cümlədən prezident Vladimir Putinə qarşı ittihamların artdığı bir şəraitdə baş verir: "Ermənistanda Rusiya xüsusi xidmətlərinin 20 il qabaq parlamentin atəşə tutulmasında "əli olduğu" haqda məlumat yayaraq, eyni zamanda Rusiya telekanallarının yayımlarını məhdudlaşdırmağı tələb ediblər. Bununla yanaşı, Paşinyanın özü Rusiyaya münasibətdə dostluq sərgiləyirsə də, "fitnəkarlar"ı yerində oturtmur. Moskva və İrəvan arasındakı münasibətlərin Ermənistanda "xalq baş naziri" və Qərbyönlü siyasətçi Nikol Paşinyanın başçılıq etdiyi inqilabi hakimiyyət dəyişikliyindən sonra pisləşdiyi artıq şübhə doğurmur. Düzdür, Ermənistanın baş naziri əksini iddia edir və respublikada antirusya "mühəriki" bir müddət boyunca dövriyyəsini bir qədər azaldıb, amma onu "boğulmağa" qoymurlar.

Deməli, Ermənistan mediası məlumat yayıb ki, ölkə parlamentinin müdafiə və təhlükəsizlik üzrə daimi komissiyasının bu günlərdə baş tutmuş toplantısında 1999-cu il oktyabrın 27-də respublikanın qanunvericilik qurumunda baş vermiş terror aktı mövzusu qaldırılıb. O zaman baş nazir Vigen Sarkisyan, parlament spikeri Karen Dəmirçyan, spikerin iki müavini, bir nazir və üç deputat terrorçuların qurbanı olub. Yığışanlar komissiya sədri Andranik Köçəryandan bu çoxdankı teraktın təhqiqatı ilə bağlı işin nə yerdə olduğu ilə maraqlanıblar və o cavab verib ki, "27 oktyabr cinayəti açılıb, sifarişçilər bəllidir. Bunu Rusiya xüsusi xidmətləri edib…". Düzdür, qalmaqallı məlumat fəal şəkildə tirajlandıqdan bir neçə gün sonra Andranik Köçəryan jurnalsitlərə bildirib ki, buna bənzər nəsə deməyib, KİV "yalan və cəfəng" məlumat yayıb. Siyasətçi təkziblə bağlı süründürməni "Azatutyun" radiosuna bununla izah edib ki, qabaqca buna "ciddi yanaşmayıb", ta ki, məlumat Azərbaycan KİV-i tərəfindən dərc edilənədək. O, bütün bu əhvalatı Ermənistan və Rusiya arasındakı strateji münasibətlərin pisləşməsinə yönəlmiş fitnəkarlıq adlandırıb. Buna çətinliklə inanırsan. Hətta beyanat yenə də olubsa, fikir doğur ki, Paşinyanla nəsə razılaşdırılıb, ya da onun sükutlu razılığıyla edilib. Ən yaxşı halda, hakim blokun "rəisi" tərəfindən pislənməyən "özündənqondarma" baş verib. Hər üç variant Ermənistan üçün eyni dərəcədə pis və təhlükəlidir, çünki bu sayaq ittihamlar cavabsız qala bilməz.

Lakin Moskva əvvəllər də çox aldanmayıb: Ermənistanın yeni baş naziri açıqca Qərbyönlü siyasətçi sayılıb və güman edilmir ki, Rusiya, KTMT baş katibi Yuri Xaçaturovun bu qurumun imicinə zərbə vurmuş həbsilə bağlı əhvalatı ona bağışlasın. Habelə, Ermənistanın keçmiş prezidenti, Moskvanın çox fərqləndirdiyi Robert Köçəryanın həbsini. Ermənistanda Rusiya biznesinə "həmlələri", Rusiyanın bacarıqsız acgözlüyə qədərki hərbi imkanları müqabilində - əlbəttə, İrəvana münasibətdə fəal antirusiya ritorikasını da buna əlavə edək. Ümumiyyətlə, İrəvan Moskva ilə münasibətlərdə uyuşmazı uyuşdurmağa çalışır.

"Ruslar"a həmlələr bununla kifayətlənmir. Yenə də Paşinyanın hakim "Mənim addımım" blokundan Ermənistan siyasətçilərinin tam "xoşbəxtliyi" üçün Ermənistanda Rusiyanın "ziyanvuran" telekanallarının yayımının dayandırılması tələb olunub. Hakim qüvvənin deputatı Narine Tuxikyanın parlamentin elm, təhsil, mədəniyyət, diaspora, gənclik və idman məsələləri üzrə daimi komissiyasının toplantısında dediyi kimi, "Rossiya", "1-ci kanal", "Mir" kimi bəzi telekanallar efirə ermənilərə nifrətə çağıran son dərəcə aqressiv verilişlər buraxır. O, televiziya və radio üzrə Milli Komissiyanın sədri Tiqran Akopyandan soruşub ki, ayrı-ayrı proqramların Ermənistan ərazisinə yayımını məhdudlaşdırmaq və ya tam dayandırmaq olarmı? Sədr söyləyib: "Mən sizinlə razıyam. Bu, Ermənistanın informasiya təhlükəsizliyi üçün müəyyən təhdid yaradır". Amma uzaqgörənliklə qeyd edib ki, bir praktikaya görə Gürcüstan və Ukraynada "çox yüksək bədəl ödəmək lazım gəlib". Və ümumiyyətlə, "bu ölkələrin ödədiyi bədəli ödəməyə hazırıqmı - axı onlar ərazilərinin bir qismindən məhrum olublar?"

Akopyan bu fikrə tərəfdardır ki, Ermənistan "balanslaşmağı bacarmalıdır, çünki indiki vaxtda yetərincə başqa önəmli problemləri var". O, habelə ümid ifadə edib ki, ölkənin daha əlverişli durumda olduğu vaxt yetişəndə bu ideyanı gerçəkləşdirə bilər. İndi isə belə bir addım "arzuedilməzdir". "Novosti - Armenia"nın məlumatına görə, "Mir" dövlətlərarası teleşirkətin Ermənistandakı təmsilçisi Merujan Sarkisyan təşəbbüsçü deputatı sözügedən kanala münasibətdə həmlənin motivlərini izah etməyə çağırıb. "Mən təəssüf edirəm ki, - o deyib, - xanım Tuxikyan bilmir, ya da məlumatı yoxdur ki, "Mir" dövlətlərarası şirkətdir və Ermənistan onun səhmdarıdır".

Buradaca yada salaq ki, "Rossiya - RTR" telekanalı ("Rossiya 1" dövlət telekanalının MDB ölkələri üçün beynəlxalq versiyası) dövlətlərarası saziş üzrə Ermənistanın bütün ərazisinə yayımlanır. Habelə qeyd edək ki, "terrorçuluq mövzusu"ndan savayı hələ heç kim Rusiya telekanallarının proqram yayımlarının bağlanmasını tələb etməyib. Lakin Ermənistana yayımlanan Rusiya telekanallarına münasibətdə "qalmaqallı ifşalar" və həmləri artıq geniş şərh edirlər. Özəlliklə hərbi ekspert Vladislav Şurıqin deyib ki, "Bütün bu addımlar İrəvan üçün çox pis qurtaracaq. Rusiya-Ermənistan münasibətləri bundan sonra da soyuqlaşsa - yeri gəlmişkən, mən buna olduqca sakit yanaşıram, çünki hesab edirəm ki, Ermənistan bizim (Rusiya) üçün qalan hamısından ən mənasız müttəfiqdir - bu halda Ermənistan özü geopolitik durumuna çox ciddi şəkildə yenidən baxmalı olacaq. Ən azı, Azərbaycanın işğal etdiyi ərazilərini qaytarmalı olacaq".

Qeyd edək ki, aprelin 15-də Moskvada Ermənistan, Azərbaycan və Rusiya xarici işlər nazirlərinin Qarabağ münaqişəsinin tənzimlənməsi üzrə növbəti görüşü baş tutub. Maraqlıdır, əsas problem üzrə danışıqlar zamanı Rusiya xüsusi xidmətlərinin "parlamenti atəşə tutduğu" haqda Ermənistan deputatları və Paşinyanın özü nə düşünür (axı Köçəryandan savayı hamı susur)? İkinci sual: bəs "terrorçular"dan silah almaq - bir də kreditə və demək olar, qəpik-quruşa - "əxlaqdandırmı"? Ermənistan yaxasını bu dəfə necə qurtaracaq? Daha doğrusu, Rusiya ona işin içindən necə və hansı müddətə çıxmaq imkanı verəcək?". Rusiya portalında səslənən bu fikirlərdən bəlli olur ki, İrəvanın Moskvaya qarşı gedişləri Kreml tərəfindən qətiyyən xoş qarşılanmır və hələlik media üzərindən Paşinyan iqtidarına Moskva öz xəbərdarlıqlarını edir. Ermənistanın "1-in.am" portalı isə yazır ki, bu xəbərdarlıqlar sonradan İrəvan üçün daha ağır nəticələrə gətirib çıxara bilər: "Özü də bunlar elə bir vaxtda baş verir ki, Nikol Paşinyanın ölkə daxilində mövqeləri sürətlə zəifləyir və Moskva bundan lazımınca istifadə edə bilər. Nəzərə almaq lazımdır ki, Nikol Paşinyan hökuməti effektli və saat dəqiqliyi ilə işləyən idarəçilik sistemi qurmağa nail olmayıb. İndiki idarəçilik sistemi köhnənin yamaq vurulmuş və yırtılmış variantıdır. Yəni yerindən çətinliklə dəbərən və ətalət gücü ilə hərəkət edən, bəzən öz-özünə və bəzən baş nazirin nüfuzu ilə şərtlənən hibrid sistemlə işimiz var. "Badalaq" təzahürləri yetərincə tezləşib, yeni ayrı-ayrı müəssisələr və onların tərkibindəki idarələr çaxnaşma, çaş-başlıq içindədir və qarşılarına qoyulan vəzifələri həmişə gərəyincə həyata keçirmirlər. İnqilabi ruh özünün ağır iştirakını görünməz şəkildə saxlamağı davam etdirir. Başqa sözlə, inqilab gəldi və "cəhənnəm qapıları"nı uçurtdu, nəticədə cəmiyyətin bütün əxlaqsız təzahürləri azadlıq əldə edib, dustaq "ruhlar" kimi qəfəsdən pırıldayıb.

Ermənistanın şəhər və kəndlərindəki kiçik inqilabi təzahürlər deyilənlərin parlaq sübutudur. İndiki anda kəndlər özlüyündə hakim güc üçün, bu sözün birbaşa mənasında, ən böyük təhlükədir. Kənd icmaları qarşısında duran ən qəliz problemlər həll olunmaz və asılı qalmağı davam etdirərsə, Paşinyan hökumətinin məğlubiyyətinin başlanğıcı məhz kəndlərdən başlanar.

Problem bundadır ki, hökumət kənd icmalarının inkişaf və islahat proqramını hələ də təqdim etməyib. İş sözdən o yana keçməyib. Qabaqlar problemlər vilayət qəbilələrinin müdaxiləsi və kəndliləri könüllü köləliyə məhkum edən kreditlərlə boğulurdu. Serj Sarksyanın bu fəndi daha işləmir, Milli Statistika Xidmətinin rəisi David Sanasaryanın "danışıqlar aparmaq bacarığı" isə ağır durumu uzun müddət sabit saxlaya bilməz. Paşinyan bu dolaşıqlığın nizamlanması üçün gec, ya tez addımlar atmasa, mina hökmən partlayacaq. Dövlət idarəçiliyi sistemi və institutları nəzarət edilməyən hərc-mərclik, yamaq vurulmuş və çürümüş özüllər şəraitində əbədi fəaliyyət göstərə bilmir. Bax, bundan Paşinyana qarşı olan xarici qüvvələr, indiki halda Rusiya məharətlə istifadə edə bilər. Onda biz təkcə Qarabağı yox, Ermənistanı da itirməli olacağıq". Bütün bunlar onu göstərir ki, İrəvanın dalana dirənmiş vəziyyətə düşməsi, Rusiya ilə kəskinləşən münasibətləri Qarabağ münaqişəsinin həllini xeyli tezləşdirə bilər.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Türkmənistan Transxəzərdən uzaqlaşır, Rusiyaya qaz satışı bərpa olunur, Trampın Novruz məktubundakı eyham yada düşür...

## *Fikrət Yusifov: "Düşünmürəm ki, "Qazprom"la razılaşmanın əldə olunması Transxəzərə kölgə salır"*

**Türkmənistan Rusiyaya təbii qaz nəqlini bərpa edib. Eyni zamanda, "Qazprom" şirkəti də Türkmənistandan qaz nəqlinin bərpa olunduğunu təsdiq edib. Tədarüklər 2003-cü ildə "Qazprom" və "Türkmənqaz" şirkətləri arasında imzalanmış mövcud 25 illik müqavilə çərçivəsində bərpa olunub.**




*"Türkmənistan "Cənub Qaz Dəhlizi" vasitəsilə Avropaya qaz ixrac etsə, qiymət baxımından daha çox qazanacaq"*

Qeyd edək ki, "Qazprom" 2016-cı ildən Türkmənistandan qaz alışını dayandırıb və bunu "müqavilə fasiləsi" adlandırıb. Rusiya şirkətini qiymət qane etməyib və "Türkmənqaz"la qiymətin aşağı salınması barədə razılıq əldə etmək mümkün olmayıb. Həmçinin, 2015-ci ilin ortasında "Qazprom eksport" arbitraj məhkəməsində iddia qaldıraraq, 2010-cu ildən qazın dəyərinin yenidən nəzərdən keçirilməsini tələb edib. 2018-ci ilin oktyabr və noyabrında "Qazprom" rəhbəri Aleksey Miller qazla bağlı danışıqlar aparmaq üçün Aşqabada səfər edib. Bu ilin martında isə məlum olub ki, "Qazprom" türkmən qazının alışını bərpa etmək niyyətindədir. Alınan qazın həcmi və dəyəri barədə məlumat verilmir.

Onu da qeyd edək ki, hazırda Türkmənistan qazının Avropaya çatdırılması üçün qaz kəmərinin Xəzərin dibi ilə aparılması planı mövcuddur. Transxəzər qaz kəməri Türkmənistan və Qazaxıstan qazının Azərbaycan üzərindən Türkiyə və Gürcüstana, oradan isə Avropa İttifaqı üzvlərinə çatdırılması üçün nəzərdə tutulub. Sözügedən layihənin reallaşmasında əsas gözlənti Türkmənistandandır. Yəni bu ölkə Transxəzərlə bağlı təşəbbüsü artırmalıdır. Ötən ilin avqustunda Xəzərin statusu ilə bağlı sahilyanı ölkələr arasında saziş imzalanandan sonra bu məsələ bir qədər də aktuallaşdı. Avropa İttifaqından, ABŞ-dan Türkmənistana bununla bağlı müxtəlif səviyyələrdə çağırışlar ünvanlandı. Türkmənistan bir sıra tədbirlərdə fəal iştirak etməyə başladı. Novruz bayramı münasibətilə Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədova göndərdiyi təbrikində ABŞ Prezidenti Donald Tramp buna xüsusi toxunub: "Ümid edirəm ki, Türkmənistan Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi ilə bağlı Qərbə yeni qaz ixrac imkanlarından istifadə edə biləcək".

Bütün bunlardan sonra Türkmənistanın Rusiyaya qaz nəqlini bərpa etməsi rəsmi Aşqabadın türkmən qazının Azərbaycan vasitəsilə Avropaya ixracını nəzərdə tutan Transxəzər boru kəmərinə marağının soyuması kimi dəyərləndirilə bilərmi?

**Məsələyə münasibət bildirən iqtisad elmləri doktoru Fikrət Yusifov bunu istisna etdi.** Onun fikrincə, Türkmənistanın qaz ehtiyatları çox olduğundan, bu ölkə müxtəlif kəmərlərlə qaz ixracında maraqlıdır: "Bu o demək deyil ki, Türkmənistan yalnız Rusiya vasitəsilə qaz ixrac etmək istəyir. Türkmənistan vaxtilə SSRİ tərkibində olub və bu səbəbdən Rusiya ilə sıx əlaqələr var. Bu əlaqələr fonunda, Rusiya ilə belə bir razılaşma əldə edilib. O baxımdan düşünmürəm ki, sözügedən razılaşma Transxəzər layihəsinin perspektivinə kölgə salır. Əslə belə deyil. Niyə? Ona görə ki, Türkmənistan "Cənub Qaz Dəhlizi" vasitəsilə Avropaya qaz ixrac etsə, qiymət baxımından daha çox qazanacaq. Bunu Türkmənistan rəsmiləri də bilirlər. Rusiya vasitəsilə qazın ixracı Türkmənistana o qədər də sərf etmir. Bununla bağlı iki ölkə arasında 3 il fasilənin yaranması məhz qiymətlə bağlı idi. O baxımdan düşünmürəm ki, "Qazprom"la razılaşmanın əldə olunması Transxəzərə kölgə salır. Çünki Türkmənistan qaz ixracını şaxələndirmək istəyir. Sadəcə öz məqsədinə çatmaq üçün tələskənlik göstərmir. Ona görə ki, Rusiya amilini nəzərə alır. Yəni Rusiyanın da maraqlarını nəzərə alaraq bu ölkə vasitəsilə də qaz ixrac edir. Transxəzər məsələsində görüləsi texniki işlər çoxdur. İlk öncə qaz alacaq ölkələrlə saziş imzalanmalıdır. Tranzit məsələsi razılaşdırılmalıdır. Bundan sonra Xəzərin dibi ilə boru kəmərinin çəkilməsinə start verilməlidir. Avropanın qaza tələbatının ilbəil artdığını nəzərə alsaq, Transxəzərin reallaşma perspektivi yüksəkdir. Ötən il Xəzərin statusu ilə bağlı razılaşmanın əldə edilməsi bununla bağlı ümidləri daha da artırıb. Ona görə də narahatlığa elə bir əsas görmürəm".

***Vidadi ORDAHALLI***

# Təzə meri gözləyən istanbulluların gözünün "kökü saraldı" - İmamoğlu qələbəsini tanıda, Yıldırım məğlubiyyətlə barışa bilmir

## *Məhərrəm Zülfüqarlı: "Hesab edirəm ki, proseslərin bu qədər uzanması arzuedilən deyil"*

**Türkiyədə martın 31-də keçirilmiş bələdiyyə seçkilərinin İstanbul üzrə nəticələri ətrafında hakim partiya ilə müxalifət arasında mübahisə davam edir. İqtidardakı AKP-nin də daxil olduğu Cümhur İttifaqı İstanbulda seçkini uduzmuş kimi görünür, amma hakim partiya bunu qəbul etmək niyyətində deyil.**




*"Qarşı tərəfin səs üstünlüyü böyükdürsə və bu sübut olunubsa, o zaman..."*

Bu arada AKP-nin tələbi ilə İstanbulda etibarsız hesab edilmiş 330 minə yaxın səsin, o cümlədən 60-dan çox məntəqədə bütün səslərin yenidən sayılması başa çatmaqda ikən Ali Seçki Şurası Maltəpə rayonunda yenidən təkrar sayım qərarı verib.

İstanbulun Maltəpə rayonu səslərin yenidən sayılmasında sonuncu rayon idi və prosesin aprelin 15-də başa çatacağı gözlənilirdi. Yəni səslərin yenidən sayılması başa çatsaydı, CHP-nin namizədi Əkrəm İmamoğlunun bələdiyyə başqanı seçildiyi haqda mandatı almasına maneə qalmayacaqdı.

Lakin AKP və onun müttəfiqi MHP Maltəpədə 400 seçki məntəqəsi üzrə səslərin yenidən (artıq üçüncü dəfə) sayılmasını tələb edib. Beləliklə, sayılmamış qalan qutular da daxil olmaqla Maltəpə rayonunda 576 seçki qutusunda bülletenlər yenidən sayılacaq. Prosesin daha nə qədər davam edəcəyi məlum deyil.

Qeyd edək ki, AKP İstanbulda seçkilərin nəticələrini tanımır və səslərin hesablanmasında, habelə seçici siyahılarının hazırlanmasında "kütləvi pozuntuların olduğunu" bildirir. Baxmayaraq ki, seçici siyahılarının hazırlanmasını hakimiyyət özü həyata keçirib, o cümlədən, bütün seçki məntəqələrində AKP-dən olan komissiya üzvləri və müşahidəçiləri səsvermənin nəticələrinə dair protokolları imzalayıblar.

Bütün bunlar Türkiyədəki bələdiyyə seçkilərinin nəticələri ilə bağlı birmənalı olmayan müzakirələrə yol açır. Cəmiyyətdə müəyyən gərginliyə səbəb olur. O baxımdan maraqlıdır, İstanbulda səslərin 3-cü dəfə sayılması nəyin əlamətidir? Doğrudanmı orada seçkilər mübahisəlidir, yoxsa ortada digər məsələ var?

**Məsələyə münasibət bildirən seçki məsələləri üzrə ekspert Məhərrəm Zülfüqarlının sözlərinə görə, budəfəki seçkilər çox gərgin keçsə də, Türkiyədə demokratik seçki sistemi var:** "Əvvəla uzun müddətdir Türkiyə demokratik dövlətdir və biz buna sevinirik. Səslərin yenidən sayılması və qarşı tərəfin buna irad bildirməsi demokratiyanın təzahürüdür. Ancaq hesab edirəm ki, proseslərin bu qədər uzanması arzuedilən deyil. Hakim partiya müxalifətin nümayəndəsini təbrik etməlidir. Sevinməlidirlər ki, onların hakimiyyətdə olduğu dövrdə demokratiya öz təntənəsini göstərdi. Hesab edirəm ki, Türkiyənin səlahiyyətli nümayəndələri, qanunverici qurumları buna münasibət bildirə bilərlər. Onu da qeyd edim ki, bir sıra inkişaf etmiş dövlətlərdə belə, seçkinin mübahisəli olması halları baş verir. Elə olur ki, iş məhkəməyə qədər gedib çıxır. Qarşı tərəfin səs üstünlüyü böyükdürsə və bu sübut olunubsa, o zaman iradların bildirilməsi və səslərin yenidən sayılması məqbul deyil. Ancaq qarşı tərəf demokratiyanın verdiyi bütün imkanlardan istifadə edərək səslərin yenidən sayılmasına gedir.

Bu da gərgin müzakirələrin davam etməsinə rəvac verir. Ümid edirəm ki, Türkiyədə oturuşmuş demokratik ənənələr ədalətin qalib gəlməsini təmin edəcək. Proseslərin bu cür uzanması Türkiyənin imicinə kölgə salmayacaq. Hər halda, hesab edirəm ki, yaşanan bu mübahisələrə və gərginliyə yaxın günlərdə son qoyulacaq".

***Vidadi ORDAHALLI***

**"DəmirBank"ın bir qrup keçmiş əməkdaşının bir neçə illik maaşının geri tələb olunması ilə bağlı olaylar bitmir. Xatırladaq ki, Həyatın Yığım Sığortasının imkanlarından faydalanmaq istəyən "DəmirBank" əməkdaşları bankın ləğv edilməsindən sonra çətinliklə üzləşib.**

# Keçmiş "DəmirBank"ın işçilərinin "Atəşgah Sığorta" ilə məhkəmə davası - işçilər Prezidentə müraciət etdilər...




Sözügedən qrup əməkdaş (30 nəfərdən çox) "Atəşgah Həyat" sığorta şirkəti tərəfindən təqdim edilən "Həyatın Yığım Sığortası" adlı məhsuldan faydalanmağa çalışıb. Xatırladaq ki, qanunvericiliyə əsasən, şirkətdə çalışan əməkdaşın əmək haqqı və ya əmək haqqının bir hissəsi sığorta məqsədləri üçün ayrılarsa, həmin məbləğ vergi və sosial ödənişlərdən azad olunur. Vətəndaşların maddi vəziyyətinin yaxşılaşdırılması məqsədi ilə yaradılmış "Həyatın Yığım Sığortası" sosial xidmətdir və bir neçə ildir ki, bir çox şirkətlərin əməkdaşları tərəfindən istifadə edilir.

Əməkdaşların vergi və sosial ödənişlərdən azad olan və əmək haqları hesabına toplanmış vəsaiti "Atəşgah Sığorta" şirkətinin hesablarında saxlanılıb. Eyni zamanda bu vəsait əsasında işçilərə aylıq xərclərinin qarşılanması üçün "DəmirBank"dan kreditlər ayrılıb. Lakin bəlli olub ki, bundan sonra Həyatın Yığım Sığortasından faydalanmaq istəyən vətəndaşların vəsaiti nəinki verilməyəcək, hətta bank tərəfindən vətəndaşın yaşayışı üçün ayrılan kreditlər də geri alınacaq. Dolayısı ilə "DəmirBank" əməkdaşları 1 ildən (hər bir əməkdaşlarda fərqli olaraq) artıq əldə etdiyi maaşları geri qaytarmalı olacaq. Buna səbəb "Atəşgah Həyat" sığorta şirkəti tərəfindən razılaşmaya daxil edilmiş bənddir. Bu bənd vətəndaşın iş yeri ("DəmirBank") iflas olduğu halda "Atəşgah Sığorta"nı vəsaiti qaytarmaq öhdəliyindən azad edir. Nəticədə vətəndaşların iri miqyaslı kreditləri (əmək haqqı əvəzinə ayrılan vəsaitlər) DəmirBank-ın ləğvedicisi olan Əmanətlərin Sığortalanması Fondu tərəfindən müqavilə vaxtı çatanda geri alınacaq, işçilərin əmək haqları əmanət vəsaitləri olaraq "Atəşgah Həyat" Sığorta şirkətinin hesabında qalaraq başqalarının gəlirinə çevriləcək. Kollektiv surətdə məhkəməyə müraciət edən "DəmirBank" əməkdaşları sözügedən mexanizmi işə salan, Atəşgah - "DəmirBank" rəhbərliyinin planı olan bu bəndin ləğv edilməsi üçün iddia qaldırıb. Lakin həm rayon, həm də apellyasiya məhkəməsi vətəndaşların əleyhinə qərar çıxararaq onları aciz durumda qoyub.

Məsələ ilə bağlı vətəndaşlar dəfələrlə həm Əmanətlərin Sığortalanması Fondu ("DəmirBank"ın ləğvedicisi), həm də "Atəşgah Sığorta" şirkətinin rəhbərliyi ilə görüşlər keçiriblər. Bu görüşlər 2017-ci ilin dekabrı, yəni Bankın lisenziyası ləğv edildiyi aydan başlayıb. Görüşlərin gedişatı zamanı çoxsaylı optimist vədlərlə qarşılaşan vətəndaşlar məhkəmə zalında tam fərqli münasibətin şahidi olurlar. Sözdə bu cür ağır duruma düşən vətəndaşların vəsaitini qaytaracağını bildirən "Atəşgah Həyat" sığorta şirkətinin rəhbərliyi heç bir halda müqaviləni yeniləməyə və ya yazılı surətdə sözünü təsdiq edən sənəd verməyə razılaşmır, hətta məhkəmələrdə ölkənin aparıcı hüquq şirkətinin əməkdaşlarını cəlb etməklə və digər yollardan istifadə edərək vətəndaşların vəsaitlərini qaytarmamaq üçün tam prinsipial mövqe nümayiş etdirir.

Ağır maliyyə vəziyyətinə düşəcək vətəndaşlar dəfələrlə müxtəlif dövlət orqanlarına, o cümlədən Milli Məclisin deputatlarına müraciət etmişlər, ünvanlayıblar. Lakin bugünədək ədalətin bərpa edilməsi üçün atılan bu addımların heç bir real təsiri olmayıb. "Atəşgah Həyat" Sığorta Şirkətinin rəhbərliyi ilə 2019-cu ilin 15 fevral tarixində keçirilən son görüş zamanı vətəndaşlar yenidən müxtəlif vədlərlə qarşılaşaraq, "Mart ayında sizə yazılı sənəd təqdim edəcəyik" sözləri ilə növbəti dəfə "yola salınıblar". Görüşdən bir neçə ay keçdiyini və heç bir vədin yerinə yetirilmədiyini görən vətəndaşlar iri qurumların arasında qurulan sxemlərin qurbanı olmayıb ağır maliyyə durumuna düşməmək üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət ünvanlayıblar. Son ümidlərini ölkə rəhbərinə ünvanlanmış müraciətə bağlayan vətəndaşlar məktubu bizim redaksiyamıza göndərib.

***Baki-xeber.com***

**Bakıda 162 saylı məktəbdə azyaşlı şagirdin intihar etməsi bir sıra əlavə mövzuların müzakirəsinə yola açıb. Bəzi sosial şəbəkə iştirakçıları həmin şagirdin rus bölməsində oxuduğunu əsas gətirərək, əcnəbi dildə alınan təhsilə qarşı çıxırlar. Onların arqumentləri bundan ibarətdir ki, rus bölmələrində təhsil olan şagirdlər əyləncə məkanlarına daha çox meylli olurlar və savad dərəcələri Azərbaycan bölməsindən aşağıdır.**

# Sosial şəbəkələrdə azərbaycanlıların rus dilində təhsilinə qarşı ictimai rəyi yanlış kökləyənlər...



*"Rus bölməsində təhsil alan uşaqların dünyagörüşü və savadlarının çox olması..."*

***Etibar Əliyev:** "Azərbaycanda rus bölməsini bitirib ölkəmizin elmindən tutmuş, bütün sahələrinə qədər böyük töhfələr vermiş kifayət qədər parlaq sima var"*

Hətta bildirirlər ki, ali məktəblərə abituriyentlər arasında ən yüksək balları rus deyil, məhz Azərbaycan bölməsinin məzunları toplayırlar. Təbii ki, bununla heç də hamı razılaşmır. Əksinə, birinci fikrin müəlliflərinə qarşı ciddi və arqumentləşdirilmiş cavablar verilir. Bu baxımdan da bizə təhsil üzrə ekspert olan şəxslərin rəyləri maraqlıdır. Rus bölmələri barədə deyilən mənfi fikirləri doğru saymaq olarmı və rusdilli orta məktəb təhsilinin ölkəmizin ümummilli maraqlarına nə kimi təsiri var?

**Təhsil üzrə ekspert Etibar Əliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, rus bölmələri ilə bağlı səsləndirilən əsaslandırılmamış mənfi fikirlərlə razı deyil:** "Azərbaycanda rus bölməsini bitirib ölkəmizin elmindən tutmuş, bütün sahələrinə qədər böyük töhfələr vermiş kifayət qədər parlaq sima var. Mən onların adlarını sadalasam, buna nə zaman yetər, nə də sizin qəzetin həcmi bunu tutar. Rus dilində təhsil almaq insanın milli kökündən qopması anlamına gəlməməlidir. Cəmiyyətdə baş verən hansısa bir xoşagəlməz hadisəni təhsilin hansı dildə alınması ilə bağlamağın adı savadsızlıqdır. Orta təhsilin mənzərəsi belədir ki, şagirdin hansı dildə təhsil almasından asılı olmayaraq, ona tərbiyənin də praktikasını öyrədirlər. Rus bölməsində oxuyan uşaqlarla bağlı bu cür ittihamlar qəbuledilməzdir. Uşağın tərbiyə almasında 3 əsas faktor var. Bunun birincisi ailədir, ikincisi məktəb, üçüncüsü isə uşağa təsir edə bilən məktəbdənkənar ətraf mühitin təsiridir. Bu hamıya aiddir və bunu dil tədrisinə görə çeşidləmək doğru deyil. Bu gün Azərbaycanda ingilisdilli məktəblərin böyük təbliğatı gedir. 30-40 il qabaq bu yox idi. Elə detallar var ki, bizim istəyimizdən asılı olmayaraq baş verir. Bu gün kimsə uşağına əcnəbi dildə təhsil verməyə üstünlük verirsə, deməli, onun əlində hansısa əsası var. Bu o demək deyil ki, həmin adam övladını məktəbə pozulmaq üçün qoyur. Çox acı da olsa bunu deməliyəm ki, rus bölməsində təhsil alan uşaqların dünyagörüşü və savadlarının çox olması həm də həmin dildə ədəbiyyatın keyfiyyətli, bol olması ilə bağlıdır. Həm də məktəblə bağlı olan praktik ədəbiyyat o dildə boldur. Bunu deməklə heç də rus bölmələrini müdafiə etmirəm. Sadəcə, müəllimlər həmin ədəbiyyatdan bəhrələnib şagirdlərə daha yaxşı tədris verirlər. Bunu qəbul etməliyik. Bu yöndə aparılan ayrıseçkiliklə razılaşmıram".

***Məhəmmədəli QƏRİBLİ***

# Orta məktəblərin tarix dərslikləri getdikcə "incəlir"...

## Kamran Əsədov: "...bu gün tarix dərsliklərinin səhifələri, həcmi azaldılır"

**Bəzən dərsliklərin məzmunu haqqında fikir söyləmək üçün ilk növbədə onun həcminə diqqət yetiririk, sonra onu vərəqləməyə, mövzulara göz gəzdirməyə başlayırıq. Son illər dərsliklərə diqqət yetirdikdə görürük ki, humanitar və ictimai elmlər sahəsində tədris edilən dərsliklər əvvəlki illərdə çap edilən nəşrlərlə müqayisədə xeyli dərəcədə nazikləşib.**

Yəni ənənəvi olaraq biz dərslikləri qalın cilddə görmüşük. İndi isə bəzi dərs kitablarında bunu müşahidə edə bilmirik. Uzağa getməyək, götürək elə tarix dərsliklərini. Bu gün orta ümumtəhsil məktəblərində tədris edilən tarix kitablarının həcmi azaldılıb, kitablar nazikləşib.

Məlumatlara görə, tarix dərsliklərini hazırlayarkən siniflərə uyğun olaraq mövzular qısaldılır, bəzi faktlar ixtisarla verilir, bəzən hansısa tarixi hadisə sadəcə bir cümlə ilə ifadə olunur. Sözsüz ki, bu da şagirdin tam olaraq o fənni mənimsəməməsi deməkdir. Şagird həmin mövzunu əhatəli öyrənmək üçün alternativ vəsaitlərə üz tutur, bu da ona vaxt itkisi və yorğunluq verir.

Tarix dərsliklərinin həcminin azaldılması nə ilə bağlıdır?

**Tarix üzrə fəlsəfə doktoru, tanınmış təhsil mütəxəssisi Kamran Əsədov hesab edir ki, bu gün tarix dərsliyimiz kifayət qədər milliləşdirilib və bu da müsbət tendensiyadır.** "İlk növbədə qeyd edim ki, Azərbaycanda orta məktəblərdə tarix dərslikləri ilə bağlı ən ciddi qüsur ondan ibarətdir ki, bu gün tarix dərsliklərinin səhifələri, həcmi azaldılır.

Atilladan Heydər Əliyevə qədər Türk dünyasının tarixi şəxsiyyətləri, böyük imperiyalarımızın hamısı tarix dərsliklərinə salınıb. Artıq milli tarix dərsliklərimiz var. Amma bu sahədə təkmilləşdirmələrin aparılmasına ehtiyac var. Bu gün tarix dərsliklərinin səhifələrinin, həcminin azaldılması doğru deyil.

Dövlət müstəqilliyini bərpa etməyimizdən 28 ildən çox müddət keçsə də, tarixlə bağlı çoxlu metodiki vəsait yaradılmayıb. Bizim uşaqlarımızın milli tariximizi, dünya tarixini, türkün tarixini öyrənmələri üçün yeganə vasitə dərslikdir, dərsliyi də həcmcə azaltmaq olmaz. Dərsliyi həcmcə azaldırsansa, deməli, sən uşaqların tarixi biliklərini məhdudlaşdırırsan. Mən bu mənfi meyli hiss edirəm və arzu edirəm ki, Təhsil Nazirliyində bu sahədə olanlar başa düşsünlər, qiymətləndirsinlər ki, tarix dərsliklərinin həcmini azaltmaq olmaz. Deyək ki, 7-ci, 8-ci və 9-cu siniflərdə Azərbaycan tarixi 100, 128 səhifədir, bu dərslik uşağın əlindən alınandan sonra hansı vəsaitlər var? Metodiki vəsait, alternativ dərsliklərimiz yoxdur.

Gəncliyin beynində tarixi Azərbaycan, tarixən yaratdığımız mədəniyyət olmalıdır. Biz indi heç kəsdən torpaq istəmirik, dünyanı dəyişdirmək istəmirik. Ancaq tarixinə, mədəniyyətinə sahib çıxmayan xalq məhvə məhkumdur. Bizim tariximiz həm qədim, həm də böyükdür. Biz imperiyalar yaradan xalqıq. Qorxmaq lazım deyil, tək özümüzü yox, qonşu əraziləri, xalqları da idarə etmişik".

O vurğuladı ki, Səfəvi, Ağqoyunlu imperiyaları dünya problemlərini həll edib və bütün bunlar dərsliklərimizdə geniş əksini tapmalıdır. "100 səhifəlik, 120 səhifəlik tarix dərslikləri ilə nə etmək olar?!" - deyə bildirən tarixçinin sözlərinə görə, düzdür, kurikulum üzrə hazırlanan dərsliklər yaxşıdır. O qeyd etdi ki, VII sinif dərsliklərində isə mövzular yarımçıqdır. "Azərbaycan tarixinə xüsusi diqqət verilməlidir. Ancaq Azərbaycan tarixi sanki hərb tarixidir. Müharibələrdən çox söhbət gedir. Dövlətlərin sosial-iqtisadi inkişafına, mədəniyyətinə az yer verilir. VIII sinif "Azərbaycan tarixi" dərsliyində Moğol İmperiyası kimi böyük bir mövzu bir abzasla əhatə olunub".

Ekspert, həmçinin, qeyd etdi ki, tarix dərsliklərində bəzi mövzuların dili ağırdır və bu da şagirdlərin o mövzuları mənimsəməsində müəyyən çətinliklər yaradır. "IX sinif "Ümumi tarix" dərsliyində "Fransa" mövzusu həddindən artıq ağır dildə, qarışıq yazılıb. XI sinif "Azərbaycan tarixi"nin informasiyaları həddindən artıq yüklüdür. VII sinif "Azərbaycan tarixi" dərsliyində isə bəzi çatışmazlıqlar var. Bir çox mövzu bir paraqrafda cəmləşib. Məsələn, monqolların Azərbaycana yürüşləri, Hülakilər dövləti, Qızıl Orda dövlətinin parçalanması bir mövzu kimi verilib. Bunlar əhəmiyyətli mövzulardır. Albaniya dövlətinin paytaxtı təkcə Bərdə göstərilir, Qəbələ haqqında heç nə deyilmir. Məhz həcmin azlığı buna ciddi şəkildə təsir göstərir.



*"Dövlət müstəqilliyini bərpa etməyimizdən 28 ildən çox müddət keçsə də, tarixlə bağlı çoxlu metodiki vəsait yaradılmayıb"*

VII sinif "Ümumi tarix" dərsliyində müəyyən çatışmazlıqlar var. Bəzi əhəmiyyətli mövzulara daha çox yer verməli olduğu halda, onlar, əksinə, olduqca qısadır. Məsələn, Türk dünyasının tarixində Osmanlı İmperatorluğu Avropanın, bütün dünyanın hər zaman qəbul etdiyi dövlətdir. Eyni zamanda, Türk dünyasının fəxri bir dövlətidir. Amma dərslikdə 6 əsr Avropada və dünyada söz sahibi olan bu dövlət haqqında məlumat çox qısa verilib. Mövzunun sərlövhəsi də belə qoyulub: "Konstantinopol necə İstanbul oldu?". Adın belə qoyulmasını doğru hesab etmirəm. Mövzu çox yığcamlaşdırılıb. Ancaq bunun əksinə olaraq, bəzi mövzular var ki, heç bir əhəmiyyət kəsb etməsə də, onlara geniş yer verilib. Məsələn, Hindistanda Qupta İmperatorluğu haqqında məlumat şagirdin nəyinə lazımdır? Bəzi mövzular həddindən artıq çox qısaldılıb və bunlarla bağlı məlumatları bir paraqrafa yığıblar. Həmin mövzularla əlaqədar məlumatları qısaltdıqca, sanki mövzu öz əhəmiyyətini itirib.

VIII sinif "Azərbaycan tarixi" dərsliyində yer alan bəzi mövzularda həddindən artıq insan, şəhər, yer adı, illər var. Bir mövzuda o qədər illər var ki, yadda saxlamaq mümkünsüzdür. O hissələr çıxarılsa, yaxşı olar. Elə mövzular var, onlar o qədər də tarixi əhəmiyyət kəsb etmir, amma bu dərslikdə öz əksini tapıb. Məsələn, "Çobanilər dövləti. Hülakilər dövləti". Bu mövzularda verilən tarixi hadisələrdə o qədər yorucu ifadələr var ki, şagird həmin hissəni oxuduqda artıq yorulur. Bu mövzu kitabdan çıxarılsa, daha yaxşı olar. Həmin dərslikdə belə tip mövzuların sayının azaldılması, məncə, daha məqsədəuyğundur".

Tarixçi-alim təklif edir ki, şagirdlərin daha çox yüklənməməsi üçün dərsliklərdə mümkün olduğu qədər insan, yer, şəhər adlarından az istifadə olunsun.

***İradə SARIYEVA***

# Lerikin Daster qəsəbə sakinləri "qan ağlayır"...

**Lerik rayonunda sosial problemlərin məngənəsində sıxılan kəndlər çoxdur. Sovet dağılandan sonra xalqa, cəmiyyətə başçılıq edənlərin gözündən-könüldən uzaq düşən Daster ərazisində yaşamaq artıq olduqca çətindir.**



Hər cür öz vətəndaşın qayğısına qalan Azərbaycanda olan həyat tərzini görəndə Daster, Hamarat, Bradi və Dızidpok kəndlərini əhatə edən bu ərazini istər-istəməz ən geridə qalmış bir ölkəyə aid etmək istəyirsən. Çünki sadə bir həyat yaşamaq üçün burada adi şərait belə yoxdur.

Ərazinin işıq məsələsi bərbad haldadır. Gün olmur ki, burada 4-5 dəfə işıqlar sönməsin. 9 ildən çox idi kəndlərə təbii qazın verilməsi haqqında söhbət gəzirdi. Sən demə bu da yalan imiş. Elə bu yalanın nəticəsidir indi yandırmağa yanacaq tapmaq müşkül məsələyə dönüb. Ərazidən rayon mərkəzinə getmək üçün ictimai nəqliyyatın yoxluğu böyük çətinliklərə səbəb olur. Sahibsizlik üzündən şəhərə düşməyə imkanı olmayan adamlara köhnə ərzaqları üç qat baha qiymətə satmaq adi hal almışdır. Ümumiyyətlə, hər dörd kəndin sosial həyatından danışmağa yaxşı heç nə yoxdur.

Dasterlilərin ruzisi əzəldən torpaqdan çıxıb. Sovet vaxtı çəkdikləri halal zəhmətləri hesabına özlərinə yaraşıqlı, hər cür şəraiti olan ev tikənlərin say bilinmirdi .Bütün bunlar yaxın keçmişdə qaldı. O dövrün təmtəraqlı evlərin görkəmi indi ürək ağıradır.

Daim deyib-gülən, üzgözündən firavanlıq yağan kənd adamları dərd-sər əlindən girinc olublar. Rayon rəhbərlərin günahı üzündən yaranan çətinliklər, ziddiyyətlər , maddi-mənəvi ehtiyac hər an adamı sınağa çəkir. Ərazini birləşdirən dörd kəndin yaxın keçmişi bu günündən qat-qat işıqlı idi. Azərbaycan hər cür inkişaf yolunda olsa da, onun kiçik bir parçası olan Daster ərazisi hazırda başdan-başa problemlərin içində boğulur. Odur ki, buranın əhalisi sovet vaxtı olan firavan günlərin həsrəti ilə yaşayır.

***Zəfər ORUCOĞLU,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin "Xatirə Kitabı" Redaksiyası "Bakı-Xəbər" qəzeti ilə birgə layihə əsasında "Şəhidlər ölməz, Vətən bölünməz" seriyasından yeni bioqrafik sənədli povestin çapına başlayır. Xatırladaq ki, bundan öncə yenə həmin birgə layihə çərçivəsində "Gözlə gələcəyəm" adlı kitab uğurla yekunlaşdırılaraq təqdim edilib. Son illərdə bütün təbiətinin ecazkar koloriti, insanlarının yüksək bəşəri keyfiyyətləri ilə mənə doğmalaşan İsmayıllıyadır yolum yenə. Bu dəfə bu yurdun itkin-şəhidinin axtarışına çıxmışam. Respublika "Xatirə Kitabı"nın redaksiyası və "Bakı-Xəbər" qəzetinin birgə layihəsi əsasında baş redaktor Nəzakət xanım Məmmədovanın bir qədər kövrək, bir qədər duyğusal təklifindən qaynaqlanır bu səfərim. Qarşıda məni və oxucuları hansı yaşantılar gözləyir?!.. Tələsməyin. Sizi bir Vətən övladının kitab-dəftərə sığmayacaq taleyinin bəzi epizodları ilə tanış edəcəyəm. İtkin-şəhid Xəqani Eyvaz oğlu Əkbərovla ilgili, onlu-onsuz tale yolu, axtarışları ilə...**

# Gözlər yoldan yığılarmı...

## XATİRƏLƏR, DİLƏKLƏR...

***(On səkkizinci yazı)***

Yazılarımız media vasitəsilə ictimailəşdikcə Xəqani xarakterinin daha dərin qatları açılır qarşımızda. Hər biri də qürurverici, hər biri də nümunəvi. Xoş sözlərlə, minnətdarlıq hissi ilə dolu çoxlu telefon zəngləri, müraciətlər, mesajlar, məktublar alıram həmkarlarımdan, oxuculardan və Xəqaninin şəxsən görüşə bilmədiyim doğmalarından. Təəssüf ki, sayları az olsa da, biganə qala bilənlər də yox deyil. Amma sonunculardan danışmağa nə vaxtımız, nə də hövsələmiz var. Gəlin, Xəqanini zamanında tanıyıb bilənlərdən aldığım məktublardan ikisini sizlərin diqqətinə təqdim edib yolumuza davam edək.

### Bircə əmim qayıtsa...

Salam Nəzirməmməd müəllim!

Mən Qinyaz müəllimin böyük qızıyam. Nuranə İsayeva. Əkbərovlar ailəsinin ən böyük nəvəsiyəm. Əvvəla sizə təşəkkür edirəm əmim Xəqani haqqında yazdıqlarınıza görə. Əmim haqqında indiyədək yazmış olduğunuz on yeddi yazının hamısını oxumuşam. Özüm də Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirmişəm. Yazıları çox təqdir eləyirəm. Çox sağ olun. Allah razı olsun! Az da olsa, sizin yazılarınız ürəyimizə, yaralarımıza su səpmiş oldu.

Əmimlə bağlı xatirələrə gəlincə, mənə elə gəlir ki, ilk öncə bütün tanıyanlar - doğmaları, dost-tanışları onu həddən ziyadə mehriban deyib-gülməyi ilə xatırlayırlar. Ağzında ağappaq dişləri olan Xəqani əmim sanki bir mehribançılıq simvolu idi.

Xatırlayıram ki, on bir yaşım vardı. Yay günləri idi. Babamgilin sizin də gedib-gördüyünüz geniş eyvanında nənəm yorğandöşək salırdı. Biz onun yanında oynayırdıq. Əmim o zaman tələbə idi, Bakıdan gəlmişdi. Artıq bilirsiniz ki, o, oxuya-oxuya həm də Elçin əmimin direktor müavini olduğu zavodda işləyirdi. Nənəmə dedi ev növbəsinə yazılıb, ona ev düşdüyünə görə zavoddan ev verəcəklər. Nənəm etiraz eləyib dedi yox, sənə ev lazım deyil, kənddəki bu boyda ev-eşik hamısı sənindi, bəs bu kənddəki evdə kim qalacaq (?!..), Bakıda evi neynirsən, onsuz da Bakıda qalasan. Onda əmim məqsədini belə əsaslandırdı ki, özüm Bakıda evsizlikdən çox əziyyət çəkmişəm, yataqxanada qalmışam, Elçingildə qalmışam, istəmirəm ki, bu qızlar da o əziyyətləri çəksinlər. Mənim adımı çəkdi, əmisi qızları Almazın, Gülüşün adını çəkdi. Dedi istəmirəm onlar - xüsusilə də qız uşaqları gedib Bakıda min bir əziyyətlə tələbəlik həyatı yaşasınlar, kirayələrdə, tanıyıb-bilmədiyimiz kimlərinsə evində yaşasınlar, valideynləri də, biz də onlara görə narahatlıq keçirək, ya da Elçingildə qalıb onları da narahat etmiş olsunlar. O söz, o sözün deyildiyi o xoşbəxt anlarımız hamısı olduğu kimi yadımda, gözlərimin qabağındadı...

Bildiyiniz kimi, Xəqani əmim də bir müddət Elçin əmimgildə qalıb. Sonra elə olub ki, universitetdə oxuduğum beş il müddətində mən də Elçin əmimgildə qalası olmuşam. Bu mənada mənimlə Xəqani əmimin o zamankı taleyində bir oxşarlıq da var.

İstəyirəm bu duyğularımı, ümidlərimi də qeydə alasınız mümkünsə: hələ də bizim gözlərimiz yoldadı, hələ də inana bilmirik ki, ona nəsə olub, o gəlməyəcək. Nənəm, sizin də qeyd etdiyiniz kimi, hər dəfə, hər dəfə qapı açılanda diksinib baxır, elə bilir bu saat Xəqani girəcək içəri. Allah bu dağı ürəyində aparan babama rəhmət eləsin, nənəmə səbr versin! İtkisi olmaq doğrudan da çəkilməsi dəhşətlərlə müşayiət olunan çox böyük ağrı, əzabdı. Əmim itkin düşəndən sonrakı bir ilimizi xatırlayanda dəhşətə gəlirəm. Bizim evimizdə nələr yaşandı, nələr yaşanmadı?!

O bir ili atam hər gün Ağdama gedib-gəlib. Təfərrüatlarını da bilirsiniz, yazmısınız. O bir ili biz bacılar hər gün nənəmlə bir yerdə ona qoşulub ağlamışıq. Bir il, sərasər. Nənəmgilə nə qədər adam gəlib-gedirdi o zamanlar. Bizim ata evimiz nənəmgildən bir qədər aralıdı. Amma hər gün atamı Ağdama yola salan kimi dörd bacı dördümüz də nənəmin yanına yüyürüb axşama kimi ona qoşulub ağlayırdıq. Bütün çəkdiklərimizi, əzablarımızı unudarıq.

Bircə əmim qayıtsa...

Bir daha sağ olun. Sizə də uğurlar arzulayıram.

### "Gözlər yoldan yığılsın," inşallah!

Nəzirməmməd bəy!

Xəqani Əkbərov haqqında yazılarınıza görə sizə təşəkkür edirəm. Mənim də Xəqani ilə bağlı bəzi xatirələrim var. Düşünürəm ki, yazılarınızda istifadə etsəniz onun xatirəsinə bir töhfə olar. Xəqani lap uşaqlıqdan çox zəhmətkeş olub. Yadımdadır,1984- cü ildə mən taxıl mövsümündə sovxozda xırman müdiri idim. Həmin il Xəqanigil IX sinfi bitirmişdilər. O vaxt IX sinifi bitirənlər "şagird istehsalat briqadası" qismində yay tətili dövründə sovxozda çalışırdılar. Həmin il onların sinifinin oğlan uşaqlarını xırmana işləməyə göndərdilər. 7-8 uşaq idilər. İş əlbəttə çətin idi. Uşaq işi deyildi. İsti hava, toz-torpaq. Səhərdən axşama taxılı "vim"də təmizləmək, daşıyıb anbara vurmaq, yağışdan qorumaq və sair. Bir sözlə, iş çox və çətin idi. Sizi inandırım ki, bütün uşaqlar bir neçə günün ərzində bir-bir qaçıb aradan çıxdılar. Amma təkcə Xəqani qaçmadı (döyüşdən, düşmən gülləsindən, canını itirəcəyindən qorxub-qaçmadığı, dağda-daşda gizlənmədiyi kimi. Bu da Xəqaninin uşaqlığı -N.Z.). Düz axıra qədər, xırman sovuşunca o işlədi. Mənə çox kömək elədi. Yaxşı da əmək haqqı qazandı. Onu da deyim ki, onlar imkansız ailə deyildilər və Xəqaninin qazancına ailənin ehtiyacı yox idi. Mən həmişə müşahidə edirdim ki, bu uşaq atası Eyvaz kişinin traktorunda işləyir, kömək edir. Düzdür, bir həmkarlar təşkilatı təmsilçisi kimi bu hərəkət, yəni azyaşlının, məktəblinin istehsalatda, ağır işlərdə istifadə edilməsi mənə xoş gəlmirdi. Amma o doğrudan da hədsiz zəhmətkeş oğlan idi və bu da görünür ailədən, gendən, qandan gəlmə idi. Nə isə, gun olsun Xaqani sağ-salamat qayıdıb gəlsin və"gözlər yoldan yığılsın",inşaallah!

***Məzahir XƏLİLOV***
***Gəraybəyli kəndinin bazasında yerləşmiş keçmiş "Şirvan" sovxozu Həmkarlar Təşkilatının sədri, təqaüdçü.***






Yaramıza su səpdiniz!..

Xəqani haqqında heç bir mübaliğəyə yol vermədən indiyədək eşidib-yazdıqlarımın daha bir sübutudur bu məktublar. Onun daxili aləmində yaşananlar özünü bütün dəyərlərimizin qorunmasında büruzə verib. Bu yarımçıq ömrün özündən qat-qat ağırlıqda daşıdığı maddimənəvi yüklər qələmə alınmaqla bitib-tükənmir. Bunları yazmamaqsa...bu onun nakam taleyinə sadəcə hörmətsizlik olardı. Daha bir hörmətimizi isə ilin bahar çağında qələmə aldığım bu yazılarla hamınızın adından qəhrəmanımızın - onun timsalında bütün şəhid və itkinlərimizin işğaldakı torpaqlarımızdan dolayı narahat ruhlarını salamlamaqla izhar etmək istəyirəm. Zəmanəmizin böyük şairi, vətənpərvər şeirlərindən bu yazılarda dönə-dönə iqtibaslar gətirdiyim Musa Yaqubun ürəkləri titrədən "Şəhidlərə bahar salamı" şeiri ilə:

*- Şəhidlərim!*
*Elimizə sizsiz gələn*
*İlkin bahar nəfəsindən*
*Torpağınız isindimi?*
*Göyümüzdən durna keçir*
*Məzarınız diksindimi?*
*Bu sədanın sizə gəlib*
*Çatmazından-çatarından*
*Salam olsun!*
*Göyümüzdən-*
*İlkin durna qatarından*
*Salam olsun!*
*Nanə-nanə gözü dolan bulaqlardan,*
*Yasınızı saxlar olan,*
*Buludları ağlar olan*
*Bu dağlardan salam olsun!*

***(Ardı 14-cü səh.)***

*(Əvvəli 13-cü səh.)*
*Bənövşələr bu dünyanı*
*Həmişə dərdi var bilib,*
*Yaza boynubükük gəlib.*
*Bu il sizə*
*Boynubükük yazımızdan,*
*Gözü yaşlı*
*O bənövşə çağımızdan,*
*O bənövşə qızımızdan*
*Salam olsun!*

*Yaşıl donlu bir qız gəlir,*
*Səmənisi qara lentli*
*Əlində gül-novruz gəlir-*
*Bu il sizə*
*Bu qapqara bayramızdan*
*Salam olsun!*
*Qaraörtük xonçalarda*
*Əriyəcək şamımızdan,*
*Uşaqlar yas nədir bilməz-*
*Ovcu qızıl yumurtalı*
*Balamızdan-hamımızdan*
*Salam olsun!*

*Azadlığın rəmzi kimi*
*Coşub-daşan çağımızdan*
*gedən ömür payınıza*
*Qalan ömür payımızdan*
*Salam olsun!*
*Göz yaşına dönüb getdi*
*Ana mehri,bacı mehri...*
*Lalələrin bağrı qara-*
*Güllə yeri-*
*Bu il qanlı köynəyiniz*
*açılmadı*
*zəmilərdə lalə-lalə -*
*Köynəyiniz o yaralı*
*lalələrdən,*
*Üstündəki göz yaşımız*
*Jalələrdən*
*Ruhunuza salam olsun!*
*Bütün çiçək sərgiləri,*
*Ağrıları,sevgiləri*
*sizin olsun,*
*Anaların acısında*
*həsrətlənən*
*Baharınız mübarəkdi.*
*İlk dəfədir çiçək açan*
*Məzarınız mübarəkdi!*
*Şəhidlərim!*

**Qinyaz Əkbərov: "Xəqaninin xatirəsinə "Şəhid parkı" salacağıq"**

Gəraybəylidə olarkən kənd sakinləri ilə söhbətlərim zamanı Xəqaninin xatirəsinin necə əbədiləşdirilməsi yollarından fikir mübadiləsi aparmalı oldum. Müxtəlif təkliflər səsləndirirlər. Təkliflərin içərisində bir çoxlarının arzusu olaraq kənddəki oxuduğu məktəbin onun adına verilməsi məsələsi də müzakirə mövzusudur. Gəraybəylidən ümumiyyətlə Qarabağda nə qədər adamın döyüşməsi ilə də maraqlanıram. Söhbətimizə Xəqaninin qardaşı və kəndin bələdiyyə sədri qismində Qinyaz müəllim müdaxilə edir:"Gəraybəyli kəndinin qismətinə Qarabağ müharibəsinin od-alovundan keçmək yazılmış daha bir neçə nəfər düşüb. Şükür ki, onların hamısı dörd il-dörd il yarımlıq döyüşdən sağsalamat qayıdıb gəldilər. Artıq sizə də bəllidir ki, onların içində mənim doğmalarım da olub. Qarabağ müharibəsi veteranları, dörd il müharibədə iştirak edən gəraybəylilərin içərisində bir nəfər II qrup Qarabağ müharibəsi əlili var. Biz bələdiyyə üzvləri olaraq həmin II qrup əlil-veteranımıza pulsuz həyətyanı torpaq sahəsi ayırıb verdik. İndi ona rayonun mərkəzində dövlət hesabına ikiotaqlı ev də veriblər. Hazırda orda yaşayır. Amma Xəqaninin statusundan biz özümüz üçün heç zaman istifadə etməmişik. Bunu özümüzə yaraşdırmırıq və ya deyirik birdən sağ ola bilər. Xəqani də, qeyd etdiyimiz kimi, bizim bütün



çağırışlarımıza məhəl qoymayıb özü bu döyüş yolunu seçdi. Dedi yox, mən getməliyəm, çünki Azərbaycan dardadır, biz də söz vermişik ki, son damla qanımıza qədər vuruşub torpaqlarımızı azad edəcəyik".

Məlumat üçün qeyd edək ki, Xəqaniyə şəhidlik statusu rəsmən tanınandan sonra o, itkin olmaqla bərabər, həm də Gəraybəyli kəndinin yeganə şəhididir. Belə olduğu təqdirdə, "kəndin yeganə şəhidinin adının hər hansı formada əbədiləşdirilməsi məsələyə daha ədalətli yanaşmaq olmazmı" sualıma cavab olaraq Qinyaz müəllim perspektivdə bu istiqamətdə nəzərdə tutduqları planlardan danışdı:

- İndi başqa bir niyyətimizi gerçəkləşdirmək istəyirik. Belə ki, dövlət başçısının son fərmanı əsasında onun varisinə də 11 min manat vəsait ödəniləcək. Artıq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin saytında adı qeydiyyata alınıb. Bu vəsaitlə kəndimizdə 0,5 hektar torpaq yeri ayırıb orada Xəqaninin adına "şəhid parkı" salacağıq. Parkın içərisində onun büstü və mərmərdən şəkli, xatirə lövhəsi, bulaq, dincəlmək üçün skamyalar və s. quraşdırılacaq. Parkda, həmçinin, dekorativ ağaclar əkdirmək niyyətindəyəm. Bunu həm kəndlilərimizin istirahət yeri, həm bizlərə təsəlli, həm vətənpərvərlik simvolu kimi planlaşdırıram. Bir də ki, dövlətimizin dünyamızda övladı, heç bir nişanəsi qalmayan qardaşımın şəhidliyi üçün ayırdığı vəsait qoy elə onun özünə xərclənsin. İndi həm şəhidlik statusu var, həm də adına park saldıracağıq ki, xatirəsini anmağa, vətənpərvərliyindən bəhs etməyə məhz Xəqani ünvanlı nəsə olsun".

Gözəl təşəbbüsdür. Bu ideyanın şəhidi olan hər bir yaşayış məntəqəmizdə yayılmasını düşünmək, uyğun addım atanları alqışlamaq gərəkdir fikrimcə. Bəzən vətənpərvərlik təbliğatı üçün bax belə - əyani guşələrin olmaması, qıtlığı və ya onların yalnız mərkəzi yerlərdə salınmasından gileylənirik. Onun hər bir yaşayış məskənində təşkili, fikrimcə, əvəzsiz bir təbliğat vasitəsinə çevrilə bilər. İnsanların mədəni istirahət məskəninə dönəcək belə parklarda dincəlmək, istirahət etmək imkanlarının savabı isə şəhidlərimizin müqəddəs ruhuna ən böyük ehtiram nümunəsi sayılar.

***(ardı var)***

***Nəzirməmməd ZÖHRABLI***

# Ermənistanın Azərbaycana təcavüzü nəticəsində itkin düşmüş soydaşlarımız unudulmayacaq...

**1988-ci ildən başlayaraq Ermənistanın təcavüzünə qarşı döyüşlərdə itkin düşmüş şəxslərlə bağlı Dövlət Komissiyası və Respublika Xatirə Kitabının birgə böyük həcmli və tarixi əhəmiyyətli işinin bir hissəsi yenicə yekunlaşıb. Minlərlə Azərbaycan vətəndaşının itkin düşdüyü ana qədərki həyat yolunu özündə əks etdirən dörd cildlik xüsusi buraxılışın ilk cildi artıq çapdan çıxıb. İlk cilddə 922 nəfər gənc, yaşlı qadın, kişi və uşaqlardan ibarət Azərbaycan vətəndaşı barədə məlumatlar yer alıb. Geniş oxucu marağını nəzərə alaraq, həmin nakam soydaşlarımızın bir neçəsi barədə məlumatı gündəlik olaraq yenidən sıra ilə təqdim etməyi qərara aldıq. Daha ətraflı məlumatı Xatirə Kitabının www.xatirekitabi.az saytından əldə edə bilərsiniz. Beləliklə, sözügedən nəşrdə yer alan itkin soydaşlarımızla bağlı məlumatları diqqətinizə çatdırırıq:**

**(Əvvəli ötən saylarımızda)**

**BABAKİŞİYEV İSLAM XƏLƏF oğlu**



14 aprel 1952-ci ildə Azərbaycan Respublikası Ağsu rayonunun Dilman kəndində doğulmuşdur. Hərbi xidmətə qədər Bakı şəhərinin Yasamal rayonunda yaşamışdır. Yasamal RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Babakişiyev İslam Xələf oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 29 mart 1993-cü ildə Kəlbəcər rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Babakişiyev İslam Xələf oğlu 29 mart 1993-cü il tarixində Kəlbəcər rayonunun Çərəktar kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Babakişiyev İslam Xələf oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BABASİYEV ASLAN MUSTAFA oğlu**

29 avqust 1970-ci ildə Azərbaycan Respublikasının Zaqatala rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Zaqatala rayonunun Aşağı Tala kəndində yaşamışdır. Könüllü olaraq Milli Ordu sıralarına qoşulmuşdur. Hərbçi. Babasiyev As-



lan Mustafa oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 8 may 1992-ci ildə Şuşa rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Babasiyev Aslan Mustafa oğlu 8 may 1992-ci il tarixində Şuşa rayonu ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Babasiyev Aslan Mustafa oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BABAŞOV ƏHMƏD TAHİR oğlu**



11 yanvar 1974-cü ildə Azərbaycan Respublikasının Biləsuvar rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Biləsuvar rayonunun Dilman kəndində yaşamışdır. Biləsuvar RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Babaşov Əhməd Tahir oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 31 avqust 1993-cü ildə Füzuli rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Babaşov Əhməd Tahir oğlu 31 avqust 1993-cü il tarixində Füzuli rayonunun Kürdmahmudlu kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürülməsi ehtimal olunur.

Babaşov Əhməd Tahir oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BABAŞOV MEHMAN MİRSƏMƏD oğlu**

27 oktyabr 1974-cü ildə Azərbaycan Respublikasının Zərdab rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Zərdab rayon mərkəzində yaşamışdır. Zərdab RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Babaşov Mehman Mirsəməd oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləş-



mələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 27 yanvar 1994-cü ildə Füzuli rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Babaşov Mehman Mirsəməd oğlu 27 yanvar 1994-cü il tarixində Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Babaşov Mehman Mirsəməd oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**(Ardı növbəti sayımızda)**

# Bakıda 400-ə yaxın bina şəhərsalma qaydalarından kənar tikilib - kim məsuliyyət daşımalıdır...

**Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədr müavini Dövlətxan Dövlətxanovun açıqlamasından məlum olub ki, Bakıda 400-ə yaxın bina şəhərsalma qaydalarına uyğun tikilməyib. Məlum olub ki, 400-ə yaxın MTK tərəfindən aparılan tikinti obyektləri şəhərsalma qaydalarına uyğun deyil. Bütövlükdə görünən odur ki, bu sahədə çoxsaylı nöqsanlar var.**



*"Nəinki məsələ qaldırılmayıb, heç araşdırma aparılmadan tikintiyə sərəncam verilib"*

***Ramil Osmanlı:** "Bunda günahkar daha çox rayon icra hakimiyyəti orqanları və Bakı Şəhər İcra Hakimiyyətidir"*

Necə gəldi binaların tikilməsi bununla bağlı müvafiq normaların pozulmasına gətirib çıxarıb. Bu həm paytaxtın ümumi arxitektur ansamblını pozub, həm də digər problemlərin yaranmasına səbəb olub. Yaranmış problemlərin həlli isə illərlə vaxt tələb edir. Cavabdeh qurumlar öz işlərinə məsuliyyətlə yanaşsaydılar, heç şübhəsiz, vəziyyət bu dərəcədə kritik səviyyəyə gəlib çıxmazdı. Onu da qeyd edək ki, Bakı ərazisində tikintilərin qanunsuz, heç bir norma və şəhərsalma qaydalarına əməl olunmadan həyata keçirilməsi ölkə prezidenti tərəfindən də çox kəskin tənqid olunub. Nazirlər Kabinetinin 2018-ci ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş iclasındakı çıxışında Prezident İlham Əliyev bildirib ki, narahatlıq doğuran sahələrdən biri də inşaat sektorudur: "Bir çox hallarda aparılan tikintilər heç bir meyara sığmır, nə şəhərsalma meyarlarına, nə tikinti meyarlarına. Bəzən memarlıq baxımından çox eybəcər binalar tikilir. Buna son qoymaq üçün çox ciddi tədbirlər görülməlidir və qanunsuz tikililərə son qoyulmalıdır. Bir çox hallarda bu işləri bir-birinin üstünə atırlar. Şəhər icra hakimiyyəti bələdiyyələrin üstünə, bələdiyyələr şəhər icra hakimiyyətinin üstünə. Amma faktiki olaraq bələdiyyələr şəhər icra hakimiyyətinin icazəsi olmadan belə hərəkət edə bilməz". Prezidentin bu çıxışından bir neçə gün sonra BŞİH-in Memarlıq və Şəhərsalma Baş İdarəsi Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin tabeliyinə verildi. Bununla bağlı ölkə başçısı fərman imzaladı. İstənilən halda, 400-ə yaxın binanın şəhərsalma qaydalarına uyğun tikilməməsi böyük rəqəmdir. Bu cür böyük nöqsana görə kim məsuliyyət daşıyır? Hansı qurum daha çox günahkardır?

**Məsələyə münasibət bildirən əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı bununla bağlı bir sıra məqamlara toxundu:** "Konkret olaraq kimin daha çox məsuliyyət daşıdığını demək bir qədər çətindir. Ancaq ümumilikdə götürəndə bunda daha çox günahkar rayon icra hakimiyyəti orqanları və Bakı Şəhər İcra Hakimiyyətidir. Bu qurumların yaranan belə vəziyyətdə məsuliyyəti daha böyükdür. Çünki həm sərəncam verən orqan kimi, həm də tikinti prosesinə nəzarət edən orqan olaraq rayon icra hakimiyyətlərinin və BŞİH-nin məsuliyyəti daha böyükdür. Ona görə ki, ərazidə hansısa tikinti aparılırsa, ilk növbədə həmin tikintinin şəhərsalma qaydalarına uyğun olub-olmamasının araşdırılması üçün dərhal icra hakimiyyəti aidiyyəti orqanlar qarşısında məsələ qaldırmalıdır. Ancaq məlum olur ki, nəinki məsələ qaldırılmayıb, heç araşdırma aparılmadan tikintiyə sərəncam verilib. Bundan başqa, tikinti prosesi dövründə qaydaların pozulması, layihədən kənara çıxılması və yekunda onlara istismar haqqının verilməsi də bura daxildir. Bütün bunlarla yanaşı, bütün günahı icra hakimlərinin üzərinə yıxmaq doğru olmaz.

Burda ayrı-ayrı məsələlərdə günahkar olan tərəflər də var. Texniki şərtləri verən, tikintiyə nəzarət edən, onun təhlükəsizliyini təmin edən, əmək qanunvericiliyinin tələblərinin pozulmasına görə nəzarət etməli orqanlar da məsuliyyət daşıyır. Deməyim odur ki, bütün qurumların ayrı-ayrılıqda məsuliyyəti var. Ancaq buna görə daha böyük məsuliyyət, dediyim kimi, rayon icra hakimiyyətlərinin və BŞİH-in üzərindədir".

***Vidadi ORDAHALLI***

# Elmira Axundova bəzi əlaqədar qurumları rəssamlara laqeyd münasibətdə suçladı

**Azərbaycanın görkəmli sənətşünas-alimi Əməkdar incəsənət xadimi, Azərbaycan Rəssamlar İttifaqının "Tənqid və sənətşünaslıq" bölməsinin rəhbəri, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "incəsənət tarixi" kafedrasının dosenti Ziyadxan Əliyevin 70 illik yubileyi münasibətilə "Sənətşünas düşüncələri" adlı miniatür kitabının təqdimat mərasi keçirilib.**



*Ziyadxan Əliyevin 70 illik yubileyi münasibətilə nəşr olunan "Sənətşünas düşüncələri" adlı miniatür kitabının təqdimatı keçirilib*

Nəşrdə Z. Əliyevin Azərbaycanın görkəmli sənətkarları, onların yaratdıqları möhtəşəm sənət əsərləri haqqında zaman-zaman qələmə aldığı mahiyyətcə çox dəyərli, keyfiyyətcə yüksək səviyyəli, sənəti və tədqiqatı məqalələri əsasında tərtib olunub. Təxminən 25 məqalədən ibarət olan, 447 səhifəlik bu kitabın ölçüsü 60 mm, tirajı isə simvolik olaraq 100 nüsxə nəzərdə tutulub. Yüksək poliqrafik və çox nəfis şəkildə nəşr olunan kitabın ideya müəllifi, təşəbbüskarı və təşkilatçısı Azərbaycanın görkəmli mədəniyyət xadimi, Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, Azərbaycan Kitabsevərlər Cəmiyyətinin sədri, Azərbaycanda ilk Miniatür Kitab Muzeyinin yaradıcısı və rəhbəri Zərifə xanım Salahova, maliyyə yardımçısı isə Azərbaycan Rəssamlar İttifaqıdır.

Təqdimat mərasimini giriş sözü ilə açan Zərifə xanım Salahova Z.Əliyevi Kitabsevərlər Cəmiyyətinə sədr seçildiyi ilk vaxtlardan tanıdığını bildirərək qeyd edib ki, həmin dövrdə Azərbaycanın ilk kitab nişanı barədə düşünməyə başlayıb və işin reallaşmasında ona Z.Əliyev dəstək olub. "Bunun üçün bir çox əlaqədar təşkilatlarla əlaqə saxladım. Ancaq istədiyim nəticəni əldə edə bilmədim. Lakin yenə də ruhdan düşmədim. Nəhayət, dəyərli dostların sayəsində Ziyadxan Əliyevlə əlaqə saxlamalı oldum. Əlbəttə ki, nəticə ürəkaçan oldu. Verdiyi sözü tutan, zəhmətdən, əzab-əziyyətdən çəkinməyən bu insan mütləq olaraq sübut etdi ki, "Azərbaycan ən qədim kitab nişanının vətənidir"- deyə o bildirib.

Sonra söz Azərbaycanın Xalq Rəssamı, professor Arif Hüseynova verilib.

A.Hüseynov qeyd edib ki, bu tədbir Z. Əliyevin 70 illik yubileyinə həsr olunan toplantılardan sayca üçüncüsüdür.

Tədbirdə millət vəkili Elmira xanım Axundovanın çıxışı bir bir qədər diqqətçəkən olub. Çıxışına "Dünyanın Səttarı" məqaləsinə münasibətlə başlayan millət vəkili qeyd edib ki, Səttar Bəhlulzadə, bütövlükdə Səttar sənəti onun üçün ikiqat əzizdir. O vurğulayıb ki, birincisi onun ecazkar sənət dünyasıdırsa, ikincisi isə bu sənət, bu sənətkar haqqında mərhum həyat yoldaşı Ramiz Axundovun Səttar Bəhlulzadə haqqında çəkdiyi ilk və yeganə sənədli filmdir.

Sonda E.Axundova bəzi əlaqədar təşkilatlara öz iradlarını bildirməkdən də çəkinməyib. O deyib ki, rəssamlarla daim təmasda olması onların həyat, sosial-məişət, sənət şəraitləri ilə yaxından tanış olmasına imkan verib və gəldiyi qənaət budur ki, rəssamların əksəriyyəti digər yaradıcı sahə adamları ilə müqayisədə maddi cəhətdən xeyli imkansız olsalar da, səxavətlilik, əliaçıqlıq baxımından kifayət qədər varlıdırlar. "Təbii ki, bu da onların yüksək insani keyfiyyətlərindən, ilahi mənəviyyatlarından irəli gəlir. Buna baxmayaraq, təəssüf ki, digər yaradıcı sahə adamları ilə nisbətdə rəssamların dəyərincə qiymətləndirilməsində son dövrlərdə sanki bir durğunluq yaranmışdır. Hansı ki… Ancaq ümid edirəm ki, əlaqədar təşkilatlar, xüsusən də səlahiyyətli təqdimatçı təşkilatlar, rəssamların da fəxri adlarla, mükafatlarla, xüsusi imtiyazlarla dəyərləndirilməsində keyfiyyətlər nəzərə alınmaqla kəmiyyət artımı təqdimatlarına da diqqəti artıracaqlar"- deyə o qeyd edib.

**Tədbirdə, həmçinin, xalq rəssamı Cəmil Müftizadə, Azərbaycan Rəssamlar İttifaqının katibi, Xalq rəssamı Ağali İbrahimov, Xalq rəssamı Eldar Mikayılzadə, yazıçı Natiq Rəsulzadə də çıxış edib.**

Qeyd edək ki, yazı sənətşünas Binnət Hümbətoğlunun qeydləri əsasında hazırlanıb.

***Xəbər xidməti***

№ 68 (3966) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

17 APREL 2019-cu il

www.baki-xeber.com

## TƏBRİK!



Çatdın 9 yaşına,
Fәxrim, qürurum mәnim
Günәş kimi şәfәq saç
İşığım, nurum mәnim

Şah damarım, igidim,
Ay sabaha ümidim,
Hәr gününә sevindim,
Bәhәrim, barım mәnim

Ucal öz zәhmәtinlә
Sevil sәdaqәtinlә
İsit hәrarәtinlә
Ocağım, qorum mәnim

Gücüm, qüdrәtim oğul,
Varım, dövlәtim oğul,

Əhdim, ülfәtim oğul
İgid Nurmanım mәnim.

Bu gün qәzetimizin baş redaktoru Aydın Quliyevin әziz nәvәsi Nurman balanın 9 yaşı tamam olur. Dünyaya gәlişi ilә ata-anasına, baba-nәnәlәrinә böyük sevinc bәxş edәn Nurman bu gün böyük sevgi ilә әhatә olunub. Nur parçası Nurmanı ad günü münasibәti ilә atası Sahil bәy, anası Zümrüd xanım, babaları Aydın bәy, Firdovsi bәy, nәnәlәri Sәadәt xanım, Aida xanım, әmisi Ramil bәy, Nahid bәy, bibisi Leyla xanım, dayısı İlkin bәy, xalası Gülgün xanım, bacısı Dәrya, bibisi oğlu Emil vә bütün onu sevәnlәr ürәkdәn tәbrik edir, Nurmana can sağlığı, uzun ömür, xoşbәxtlik arzu edirlәr. Əziz Nurman bala, xoş günlәr, firәvanlıq, әmin-amanlıq içindә böyü, ucal, bütün arzularına çat.

Nurmanı tәbrik edәnlәr sırasına "Bakı-Xәbәr"in kollektivi dә qoşulur.

**9 yaşın mübarәk әziz Nurmanımız!**

## TƏBRİK!

Hәqiqәt müәllimәnin ad günüdür. Bu münasibәtlә onu rәhbәrlik etdiyi Kәlbәcәr rayonu 23 saylı tam orta mәktәbin kollektivi tәbrik edir, ona can sağlığı, ailә sәadәti, işlәrindә müәffәqiyyәtlәr arzulayır.



Ziyalı ömrü sәnin,
Ay Hәqiqәt müәllimә!
Xeyirxahdı әmәlin,
Lәyaqәtli qızısan,
Kәlbәcәr övladısan.

Otuz dörd il nәdi?!
Yüzdәn danış bizә sәn.
Yüz ilin aşırımında,
Əl edәsәn bizә sәn!

## "Bakcell" yeni baş icraçı direktorun işә başlayacağını elan edir

**Azәrbaycanın ilk mobil operatoru vә әn sürәtli mobil internet provayderi "Bakcell" şirkәtinin yeni baş icraçı direktoru vәzifәsinә cәnab Rainer Rathgeber tәyin edilәcәk. O, şirkәtdә fәaliyyәtinә növbәti ay әrzindә müvafiq prosedurlar bitdikdәn sonra başlayacaq.**



Telekommunikasiya sahәsindә 20 illik iş tәcrübәsinә malik olan cәnab Rathgeber Avropa vә Asiya ölkәlәrindә bir sıra rәhbәr vәzifәlәrdә çalışıb. Almaniyada "Deutsche-Telekom AG" strukturlarında rәhbәr vәzifәlәrdә çalışan cәnab Rathgeber "TMobileInternational AG"dә vitse-prezident,"T-Mobile-Croatia"da baş icraçı direktor, "CroatianTelekom"da mobil rabitә biznesi üzrә baş әmәliyyat direktoru, "OTE Group-Greece" vә "Romtelecom Romania"da direktorlar şurasının üzvü olub. O, hәmçinin, Abu-Dabidә "EtisalatGroupd"da baş kommersiya direktoru, Nigeriyanın "EMTS" şirkәtinin vә Pakistanın "PTCL" vә "Ufone" şirkәtlәrinin direktorlar şurasının üzvü, Pakistanın "Ufone" şirkәtindә baş icraçı direktor, Pakistanın "Ubank" tәşkilatında (PTCL qrupunun hissәsi) direktorlar şurasının sәdri kimi vәzifәlәrdә çalışıb.

"Bakcell" Azәrbaycanın telekommunikasiya sektorunda güclü mövqeyә malikdir vә son illәrdә xüsusilә böyük nailiyyәtlәr әldә edib. Bu sırada mәn qlobal telekommunikasiya sektorunda böyük әhәmiyyәt daşıyan "әn sürәtli mobil şәbәkә" vә "bestin test" ("sınaq nәticәlәrinә görә әn yaxşı") mükafatlarını, sürәtlә genişlәndirilәn 4G şәbәkәsini vә müştәri xidmәtlәri sahәsindә innovasiyaların tәtbiqi kimi mәqamları xüsusilә vurğulamaq istәrdim. "Bakcell"in davamlı inkişafı üçün öz peşәkar tәcrübәmdәn vә bacarıqlarımdan tam olaraq istifadә edәcәyәm. İnanıram ki, şirkәtin peşәkar komandası ilә birlikdә "Bakcell"in bundan sonra da uğurlu inkişafını davam etdirәcәyik", - deyә cәnab Rathgeber bildirib.

2016-cı ilin may ayından 2019-cu ilin aprel ayınadәk "Bakcell"in baş icraçı direktoru vәzifәsindә çalışmış cәnab Nikolai Beckers şirkәtin uğurlu fәaliyyәtinә töhfә verib. Bu illәr әrzindә "Bakcell" şirkәtinin Azәrbaycanın telekommunikasiya bazarındakı mövqeyi daha da güclәnib.

"Bakcell" Azәrbaycanda mobil rabitә xidmәti göstәrәn ilk şirkәtdir. Şirkәtin 4G şәbәkәsi artıq bütün Bakı vә Abşeron әrazisi daxil olmaqla ölkәnin 40-dan çox rayon vә şәhәr mәrkәzindә mobil operatorun abunәçilәrinә әn üstün müştәri tәcrübәsi tәqdim edir. 7000-dәn artıq baza stansiyası vasitәsilә "Bakcell" şәbәkәsi әhalinin 99%-ni, ölkә әrazisinin isә 93%-ni (işğal olunmuş әrazilәr istisna olmaqla) әhatә edir.

## 4-cü "Barama İnkubasiya Proqramı" üzrә qalib layihәlәr bәlli olub

**"Azercell Telekom" MMC-nin Barama İnnovasiya vә Sahibkarlıq Mәrkәzinin öz ideyalarını biznesә çevirmәk vә uğurlu karyera qurmaq istәyәn gәnclәr üçün elan etdiyi 4-cü İnkubasiya Proqramının seçimlәri başa çatıb.**

Münsiflәr heyәtinin qarşısında öz layihәlәrini tәqdim edәn 13 startapdan yüksәk bal toplayan 6-sı proqramda iştirak etmәk haqqı qazanıb. Seçimlәrdәn uğurla keçәn komandaların rәhbәrlәri Fuad Gülmәmmәdov, Tuncay Hüseynov, İsa Zeynal, Mәhәmmәd Kekalov, Tural Zәkәryazadә vә әcnәbi rezident olan Javier Chau Barama İnnovasiya vә Sahibkarlıq Mәrkәzindә öz layihәlәrini reallaşdırmaq şansını әldә ediblәr. Mәlumat üçün bildirәk ki, İnkubasiya Proqramına seçim prosesi 2 mәrhәlәdәn ibarәt olub. Birinci mәrhәlәdә qeydiyyatdan keçmiş layihәlәr mәrkәz tәrәfindәn dәyәrlәndirilib vә seçilmiş komandalar ikinci mәrhәlәyә dәvәt olunub. İkinci mәrhәlәdә komandalar öz layihәlәrini biznes- plan vә tәqdimat formasında nümayiş etdiriblәr. Onu da qeyd edәk ki, 6 aylıq inkubasiya proqramının sonunda әn uğurlu startapın tәklif etdiyi mәhsul vә ya xidmәt korporativ müştәri olaraq "Azercell"ә tәqdim olunacaq. İnkubasiya proqramında informasiya texnologiyaları, virtual oyunlar, media, sәhiyyә texnologiyaları (MedTech), әşyaların interneti (IoT), maliyyә texnologiyaları (FinTech), kәnd tәsәrrüfatında innovativ hәllәr (AgTech), virtual reallıq (VR), artırılmış reallıq (AR), süni zәka (AI), Bulud hesablamaları vә biznes hәllәri sahәlәrinә üstünlük verilib. "Azercell" vә "PAŞA Bankın" dәstәyilә Barama İnnovasiya vә Sahibkarlıq Mәrkәzi ölkәdә startap mühitinin vә rәqәmsal ekosistemin inkişafını hәdәflәyәrәk, rezident startapları 6 ay әrzindә ödәnişsiz ofis mәkanı, konsultasiya xidmәtlәri, tәlim proqramları ilә tәmin edir, onlara peşәkar biznes şәbәkәsi ilә sıx işgüzar әlaqәlәr qurmaq imkanı yaradır. Daha әtraflı mәlumat üçün news@mcs.az ünvanına müraciәt edә bilәrsiniz.





**Qoç** - Günün ilk yarısında üzlәşdiyiniz problemin hәllindә bütün mümkün vasitәlәrdәn istifadә edin. Rәqiblәr sizin zәifliyinizi gözlәyir, yeni mәkrli plan qururlar. Mümkün qәdәr diqqәtli olun.



**Buğa** - Maliyyә mәsәlәlәrini tәlәsik hәll etmәyin. Tәrәfdaş vә şәriklәrlә qarşılıqlı münasibәtlәrdә diqqәtli olun, maraqların tәsirini unutmayın. Xoşagәlmәz situasiya, pul itkilәri vә yalan istisna deyil.



**Əkizlәr** - Danışıqlar vә müzakirәlәr üçün әlverişli zamandır. Situasiyadan yararlanın. Dәvәt aldığınız tәdbirlәrә qatılmaqdan boyun qaçırmayın. Aktiv olun, başqalarının әldәn verdiklәri şanslardan siz yararlanın.



**Xәrçәng** - Tәlәskәnliyin, vurnuxmanın çox olduğu bir gündür. Aktiv tәmasda olun, mәktublara vә mesajlara cavab verin. Prioritetlәri dürüst müәyyәnlәşdirin. Əks tәqdirdә, sinirlәnәrәk itkilәrә yol verә bilәrsiniz.



**Şir** - Adi, yeknәsәk, rutin iş sizi darıxdırmasın. Belә mәsәlәlәrә başdansovdu yanaşsanız, sonradan ağır fәsadlara sәbәb olacaq prosesә tәkan verәcәksiniz. Əmәyinizin nәticәsini görәcәksiniz.



**Qız** - Günün ilk yarısından etibarәn planlarınızı hәyata keçirmәyә başlayın. Kiçik gecikmәlәr vә tәxirәsalmaların öhdәsindәn gәlә bilәrsiniz. Yaşam potensialınızın sәviyyәsi yüksәkdir.



**Tәrәzi** - Günün ilk yarısında işlәrdә uğurlar olacaq. Ünsiyyәtdә aktiv olsanız, kollektivdәki mövqelәriniz daha güclü vә sәbatlı olacaq. Karyera inkişafı, gәlirlәrin artımı istisna deyil.



**Əqrәb** - İşgüzarlığı artırın. Praktik olun. Yaxşı ideyalar yaranacaq. Bәzi maliyyә problemlәrini hәll etmәk şansları yaranıb. Mәlumat, bilik vә informasiya ilә bağlı layihә gәlir verә bilәr.



**Oxatan** - Yaşam tonusunuzun sәviyyәsi yüksәlәcәk. İntellektual fәaliyyәt üçün әlverişli zamandır. Bilik vә informasiyanızı artırın. Maliyyә әmәliyyatları aparanda diqqәtli olun. Qısa sәfәrә çıxmaq olar.



**Oğlaq** - Yaradıcılıqla mәşğulsunuzsa, әlverişli gündür. İntuisiyanıza güvәnin. Çәtin problemlәrin hәllini aktivlәşdirmәk üçün yeni ideyaya ehtiyac var. Rutin vә yeknәsәk metodlar işlәk deyil.



**Dolça** - Əhvalınız dәyişәcәk, hәtta bәlkә pislәşәcәk dә. Aqressiv, qıcıqlı olmayın. Kiçik iradlara sәrt reaksiya vermәyin. Özünüzü әlә alın. İntizamlı, soyuqqanlı, tәmkinli olun.



**Balıqlar** - Əmәyinizin bәhrәsini görmәk istәyirsinizsә, tәvazökar olun. Yaxın әtrafınızdakı insanların fikirlәrini vә mövqelәrini nәzәrә alın. Kommunikativ bacarıqlarınız yüksәk olmalıdır.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

nar

Gәlin birlikdә böyüyәk

## "Nar" abunәçilәrinin nәzәrinә!

01.05.2019-cu il tarixindәn etibarәn "Nar"ın korporativ müştәrilәr üçün tәqdim etdiyi tariflәrdә ("Corpo Gold", "Black" vә "Corpo Platinum") dәyişikliklәr olacaq. Daha әtraflı mәlumatı www.nar.az saytından әldә edә bilәrsiniz.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.